Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

2

AVQUST 2019-cu il

№ 135 (4033)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


■ səh. 3 ■

# PREZİDENT SÜNİ QİYMƏT ARTIMININ ARXASINDA DURANLARI KONKRET GÖSTƏRDİ...

Prezidentin əsaslı iradına qədər Bakını işıqlandırmalı olanlar hara baxırdı...

■ səh. 6 ■

Qondarma "DQR"də xaos salmaq istəyənlərə yüksək səviyyədə hədə-qorxu gəlindi...

■ səh. 9 ■

ABŞ - İran qarşıdurmasında Azərbaycanın öz oyunu var - Qafqazın platsdarma çevrilməsinin qarşısı alınır

■ səh. 8 ■

Ölkədə ən iri nağd ödəniş sahələri - "novostroyka" mənzillər və avtosalonlarda satış...

■ səh. 6 ■

Almaniya ABŞ-ın İrana qarşı Hörmüz boğazına hərbi qüvvə göndərmək təklifini rədd etdi

■ səh. 7 ■

Azərbaycan CQD layihəsi üçün nəzərdə tutulmuş 750 mln. dollar kreditdən imtina edə bilər

■ səh. 2 ■

## Vahid Əhmədov KİVDF-nin fəaliyyətini qaralayan bir neçə uğursuz sabiq qəzetçilərlə eyni sırada dayandı



■ səh. 4-5 ■



### Azərbaycandan dünya dövlətləri üçün nümunə - söhbət xarici borcdan gedir

■ səh. 11 ■

### Paşinyan korrupsiya ilə mübarizənin səmərəli formasını tapa bilmir - indi də korrupsiya məhkəmələri yaradır...

■ səh. 5 ■




### Sulutəpədə «Camal LTD» sexlərindən «Araz» marketə - buz kimi donan «marojna» görmüsünüzmü, adı da «Plombir»...

■ səh. 12 ■

■ səh. 3 ■

Azərbaycanda kölgə iqtisadiyyatı ilə mübarizənin yeni mərhələsi açılır...



■ səh. 7 ■

Fəzail Ağamalı Fazil Mustafanın şiəlikdən sünniliyə keçdiyini dedi...



■ səh. 10 ■

Qeyri-neft sektorumuzda davamlı artımın insan yaşayışına birbaşa və dolayı təsirləri...



■ səh. 10 ■

Azərbaycanın kənd təsərrüfatında elmi yanaşma metodu özünü hansı formalarda göstərir...



■ səh. 13 ■

Qarayaradan necə qorunmaq olar?



## Prezident Ağdaş rayonunda yol tikintisinə 18,7 milyon manat ayırdı

**Prezident İlham Əliyev Ağdaş rayonunun Orta Qəsil-Şordəhnə-Qarağan Şıxlar-Kükəl-Ərəb-İkinci Aral avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, on yeddi min nəfər əhalinin yaşadığı 16 yaşayış məntəqəsini birləşdirən Orta Qəsil-Şordəhnə-Qarağan Şıxlar-Kükəl-Ərəb-İkinci Aral avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 18,7 milyon (on səkkiz milyon yeddi yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılır.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməlidir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

## Leyla Əliyevanın təşəbbüsü ilə Bakıda ictimai çimərliklər yaradılır

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın nəcib təşəbbüsü ilə Bakıda ictimai çəmərliklərin yaradılmasına başlanıb.**



IDEA İctimai Birliyindən "Trend"ə bildirilib ki, paytaxt sakinləri və eləcə də şəhərimizin çoxsaylı qonaqlarının istək və arzuları, onların IDEA İctimai Birliyinə müraciətləri nəzərə alınaraq birliyin təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə paytaxtın dənizkənarı ərazilərində mövcud özəl istirahət mərkəzləri və pullu çimərliklərə alternativ olaraq ictimai çimərliklərin yaradılmasına başlanıb.

İlk olaraq belə çimərlik Səbail rayonunda, "Şıx" çimərliyiərazısındə, Salyan yolu 32 ünvanında (Bakı Şəhər Baş Kömrük İdarəsi ilə üzbəüz) dəniz kənarında 6 ha sahədə yaradılıb. Əvvəllər baxımsız vəziyyətdə olan ərazi təmizlənərək abadlaşdırılıb, burada 60 ədəd kölgəlik, 6 yerdə soyunub-geyinmə kabinaları, 2 yerdə duş, 2 yerdə 2 kabinalı sanitariya qovşağı, istirahətə gələn vətəndaşların nahar etmələri üçün 2 ədəd söhbətgah quraşdırılıb, futbol və voleybol meydançaları yaradılıb, dəniz kənarına uzanan yola asfalt çəkilib, 3500 kvadratmetr ərazidə avtomobil dayanacağı yaradılaraq bura asfaltlaşdırılıb.

Vətəndaşların istirahərinin təşkili üçün çimərlik ərazisinə kifayət qədər oturacaq və qamaklar qoyulub, ərazı boyunca zibil konteynerləri quraşdırılıb, əlavə işlər görülüb.

Yaxın günlərdə Pirşağı və Buzovna qəsəbələrində yeni ictimai çimərlik istifadəyə veriləcək. Ümumilikdə isə paytaxtın dənizkənarı ərazilərində 7 yerdə belə çimərliklərin yaradılması nəzərdə tutulur.

"Şıx" ərazisində fəaliyyətə başlayan və digər ərazilərdə yaradılan ictimai çimərliklərə giriş və digər xidmətlərdən istifadə pulsuzdur. Ərazinin təmizliyinin lazımi səviyyədə saxlanması üçün burada xidmət personalı fəaliyyət göstərəcək.

## Elman Rüstəmov manatın taleyinə aydınlıq gətirdi

**Bütövlükdə manatın məzənnəsi sabitdir və sabit olaraq qalır. "Trend"in məlumatına görə, bunu Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirədə deyib.**



E.Rüstəmov bildirib ki, xarici balansın müsbət olması, ixracın şaxələndirilməsi istiqamətində görülən işlər və valyuta təklifinin genişlənməsi və bazarda müsbət gözləntilər daxili valyuta bazarında əhəmiyyətli profisit yaradıb: "Bütövlükdə bu gün Mərkəzi Bankın sterilizasiyası ilə birlikdə daxili valyuta bazarında 1 milyard ABŞ dollarından çox profisit mövcuddur. Bu isə bütövlükdə manatın məzənnəsinin nəinki bugünkü sabitliyinə, həm də bütövlükdə gözlənilən sabitliyinə təminat verir. Baxmayaraq ki, məzənnəmiz sabitdir, biz tərəfdaş olan ölkələrlə, ticarət tərəfdaşlarımızla xarici rəqabət qabiliyyətimizi izləyirik. Altı ay ərzində manatın real məzənnəsi 1,2 faiz ucuzlaşıb".

# Ermənistan "sabitlik adası"?



**Ermənistanın xarici işlər naziri "sabitlik" sözünün mənasını düzgün başa düşmür.**

"Trend"-in məlumatına görə, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva özünün "Twitter" səhifəsində Ermənistan XİN rəhbəri Zoqrab Mnatsakanyanın Ermənistanı "sabitlik adası" adlandırmasını şərh edərkən deyib.

L.Abdullayeva erməni nazirin bu sözü düzgün anlamadığını vurğulayıb:

"Başqa dövlətin torpaqlarını işğal altında tutan və etnik təmizləmə aparan təcavüzkar necə "sabitlik adası" ola bilər? İlk növbədə beynəlxalq hüquqa hörmət etmək lazımdır!"

# Azərbaycan CQD layihəsi üçün nəzərdə tutulmuş 750 mln. dollar kreditdən imtina edə bilər

**Azərbaycan "Cənub Qaz Dəhlizi" (CQD) layihəsinin həyata keçirilməsi üçün Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi - MİGA ilə bağlanmış kredit müqaviləsi çərçivəsində 750 mln. dollar məbləğində kreditdən imtina edə bilər. Bunu maliyyə naziri Samir Şərifov deyib.**




"Sevindirici haldır ki, bu layihə üzrə nəzərdə tutulmuş maliyyələşdirməyə tam ehtiyac yaranmamışdır, lakin xarici maliyyə qurumları ilə danışıqlar aparılmışdı, yəni onlar bu vəsaitləri ayırmağa hazır idilər. Amma birinci paket olaraq biz 2 milyardlıq borclanmadan imtina etdik", - deyə o, iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə bildirib.

Nazirin sözlərinə görə, Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi - MİGA ilə Cənub Qaz Dəhlizi şirkəti tərəfindən 750 mln. Dollar məbləğində kredit müqaviləsi bağlanıb.

"İndi isə o kreditin götürülməsinə ehtiyac yoxdur. Yəni həm o layihə üzrə qənaət hesabına, həm də layihənin işə salınması ilə əlaqədar bizim o şirkətimiz artıq sərbəst maliyyə axınına malik olub və o, vəsait hesabına bu borcları təmin edir", - deyə S.Şərifov vurğulayıb.

"Cənub Qaz Dəhlizi" layihəsi "Şahdəniz" yatağının işlənməsi üzrə "Mərhələ-2" çərçivəsində hasil edilən Azərbaycan qazının Türkiyə vasitəsilə Avropaya nəqli üçün boru kəməri infrastrukturunun yaradılmasını nəzərdə tutur.

CQD layihəsinin əsas komponentləri bunlardır: "Şahdəniz" layihəsi üzrə "Mərhələ-2", Bakı-Gürcüstan-Türkiyə sərhədi Cənubi Qafqaz boru kəməri magistralının genişləndirilməsi, Türkiyənin şərq sərhədindən qərb sərhədinə qədər Trans-Anadolu qaz kəmərinin (TANAP) və Yunanıstan, Albaniya və Adriatik dənizini birləşdirən Trans-Adriatik qaz kəmərinin (TAP) tikintisi.

Layihənin ümumi dəyəri $40 mlrd.-dır.

10 mlrd. kubmetr həcmində Azərbaycan qazının Avropaya nəqli 2020-ci ildə gözlənilir. Bundan başqa, 6 mlrd. kubmetr həcmində Azərbaycan qazı Türkiyənin qərb regionlarına nəql olunacaq. Türkiyəyə qaz 2018-ci ilin yayından ixrac edilir.



## ABŞ müzakirələr aparmalı olduğu şəxsə sanksiya tətbiq edib

**ABŞ İranla müzakirəyə hazır olduğunu bildirsə də, müzakirə aparacaq şəxsə, İranın xarici işlər nazirinə sanksiyalar tətbiq edib. "Trend"in məlumatına görə, bunu İran Prezidenti Həsən Ruhani Şərqi Azərbaycan vilayətinin Təbriz şəhərində deyib.**

H.Ruhaninin sözlərinə görə, bir ölkə ilə müzakirə aparmaq üçün həmin ölkənin xarici diplomatiya idarəsinin rəhbəri ilə danışıqlar olmalıdır: "Halbuki, ABŞ İranın Xarici işlər nazirinə sanksiyalar tətbiq edib. Sanksiyaların İrana zərəri olsa da, xeyri də olacaq. Lakin sanksiya tətbiq edənlər üçün zərərdən başqa heç bir faydası olmayacaq".

İran prezidenti bildirib ki, sanksiyalar şəraitində İranın özünə arxalanaraq önəmli inkişaflar əldə etməsinə imkan yaranır.

Qeyd edək ki, ABŞ İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifə sanksiyaların tətbiq olunduğunu elan edib.



## AMB valyuta ehtiyatlarının idarə olunmasından 100 milyon dollardan çox gəlir əldə edib

**Neftin qiyməti ilin əvvəlindən 20 faizə qədər artıb və 66 dollardır. Bu bizim daxili proqnozlarımızda, yəni büdcə və sosial-iqtisadi proqnozlarda qoyduğumuz proqnozdan 6 dollar çoxdur. "Trend"in məlumatına görə, bunu Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirədə deyib.**

E.Rüstəmov bildirib ki, strateji valyuta ehtiyatlarımız son illərdə əhəmiyyətli dərəcədə artıb: "Biz inamla bütövlükdə böhrandan öncəki səviyyəni bərpa etməyə doğru gedirik. Qırx doqquz milyard dollar bizim ümumi daxili məhsuldan daha çoxdur. Bu, Azərbaycanın həm yüksək beynəlxalq ödəmə qabiliyyətini, həm də yüksək maliyyə təhlükəsizliyini ifadə edir.

Mərkəzi Bankın özünün də valyuta ehtiyatları artır. Cari ildə biz valyuta ehtiyatlarımızı 330 milyon dollardan çox artırmışıq. Amma diqqətinizi ona cəlb etmək istəyirəm ki, valyuta ehtiyatlarının idarə olunmasının effektivliyinin artırılması olduqca mühüm məsələdir. Bu vəsaitin təxminən 100 milyon dollardan çoxunu biz altı ayda xarici idarəetmədən almışıq. Baxmayaraq ki, beynəlxalq maliyyə bazarlarında vəziyyət kifayət qədər mürəkkəbdir və faiz dərəcələri aşağıdır. Biz ili 3,2 faiz gəlirlə başa vurmağı düşünürük".

# Prezident süni qiymət artımının arxasında duranları konkret göstərdi...

## *Fikrət Yusifov: "Cərimələr də artmalıdır ki, həmin işbazlar bir manat qazanmaqla 100 qat əvəzini ödəyəcəklərini bilsinlər"*

**Azərbaycan Prezidenti İlham Əliyev iyulun 31-də keçirilən sosial-iqtisadi sahə ilə bağlı müşavirədə deyib ki, biz süni qiymət artımına yol verə bilmərik: "Baxmayaraq ki, inflyasiya aşağı səviyyədədir, ancaq bəzi hallarda süni qiymət artımı da müşahidə olunur. Müvafiq qurumlar bu məsələ ilə ciddi məşğul olmalıdırlar.**

Mənə məlumat verilən kimi, dərhal göstərişlər verilir. Yəni istehlak bazarına daim nəzarət olmalıdır. Çünki burada kartel sövdələşmələri də istisna deyil. Əlbəttə ki, biz süni qiymət artımına yol verə bilmərik. Çox ciddi nəzarət mexanizmi olmalıdır. Bu sahə daim diqqət mərkəzində olmalıdır".

Bəllidir ki, ölkədə süni qiymət artımı ilə məşğul olan işbazlar var. Bu amil ölkə başçısı səviyyəsində etiraf edilirsə, deməli, vəziyyət olduqca ciddidir və bununla mübarizə prioritetə çevrilməlidir. Belə zərərli amillərlə hansı səviyyədə mübarizə aparılmalıdır ki, effekti güclü olsun?

İqtisad elmlər doktoru Fikrət Yusifov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycanda süni qiymət artımı ilə məşğul olan xüsusi bir qurum var: "Bu cür zərərli amillərlə mübarizə aparmaq onların səlahiyyətinə aiddir. Hesab edirəm ki, ölkə başçısının müvafiq göstərişindən sonra həmin qurum öz səlahiyyətləri daxilində mübarizəni daha da gücləndirəcək. Digər tərəfdən, ictimai nəzarət də öz sözünü deməlidir. Hesab edirəm ki, qiymətlərin bu şəkildə artırılması sentyabrda ciddi problemlərə səbəb ola bilər. Çünki həmin vaxt dövriyyəyə böyük pul kütləsi daxil olacaq. Söhbət əməkhaqları və bəzi müavinətlərin artırılmasından gedir. Bunu düşündükdə, onda belə addımları atanlara bir ad vermək olar: möhtəkirlər. Bu cür əməllərə qarşı həm də sərt hüquqi ölçülər götürülməlidir. Gördünüz ki, ölkə başçısı öz çıxışında bu amilə xüsusi vurğu etdi. Bilirsiniz ki, ölkədə elə güclü inflyasiya yoxdur ki, qiymət artımı onunla əsaslansın.



Cərimələr də artmalıdır ki, həmin işbazlar bir manat qazanmaqla 100 qat əvəzini ödəyəcəklərini bilsinlər. Bütün hallarda, hamının üzərinə böyük məsuliyyət düşür. Hətta sadə vətəndaşlarımız da belə halları müəyyən etdikdə öz etirazlarını, şikayətlərini lazımi instansiyaya çatdırmalıdırlar".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanda kölgə iqtisadiyyatı ilə mübarizənin yeni mərhələsi açılır...

## *Əli Əlirzayev: "Qanunlarda hansısa boşluqlar da kölgə iqtisadiyyatına zəmin yaradır"*

**Kölgə iqtisadiyyatı ilə mübarizə bizim üçün indi əsas məsələlərdən biridir. Xəbər verildiyi kimi, bunu Prezident İlham Əliyev sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə deyib.**



Ölkə başçısının sözlərinə görə, bizdə nağdsız ödənişlər hələ də aşağı səviyyədədir: "Hesab edirəm ki, bu sahədə çox ciddi addımlar atılmalıdır. Çünki biz çalışmalıyıq ki, nağdsız ödənişlərin həcmi artsın. Posterminalların sayı da artmalıdır. Ancaq mənə verilən məlumata görə, onların sayı artmır. Bu problem öz həllini tapmalıdır. Çünki nağdsız ödənişlərin aşağı səviyyədə olması, əlbəttə ki, kölgə iqtisadiyyatını qidalandırır. Kölgə iqtisadiyyatı ilə mübarizə bizim üçün indi əsas məsələlərdən biridir. Bu gün burada verilən məlumat bunu göstərir ki, bu istiqamətdə önəmli addımlar atılıb. Yüz mindən çox əmək müqaviləsi bağlanıb. Halbuki, bu insanlar əvvəllər kölgə iqtisadiyyatında fəaliyyət göstərirdilər. Nağdsız ödənişlərin aşağı səviyyədə olması, əlbəttə ki, qəbuledilməzdir. Tapşırıq verirəm ki, bu məsələ təhlil edilsin və ciddi addımlar atılmalıdır. Nağdsız ödənişlərin ümumi həcmi Azərbaycanda 2 milyard 300 milyon dollardır".

Prezidentin məlum açıqlamasından belə məlum olur ki, kölgə iqtisadiyyatının minimum səviyyəyə endirilməsi üçün işlər davam etdirilməlidir. Bunun üçün də, başlıcası, nağdsız hesablaşmaların həcmini artırmaqdır. Nağdsız hesablaşmaların hazırkı həcmi qaneedici səviyyədə olmadığı üçün, kölgə iqtisadiyyatı ilə mübarizə də lazımi səviyyədə getmir. O baxımdan kölgə iqtisadiyyatı ilə daha effektiv mübarizə aparılmalıdır.

Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayevin sözlərinə görə, bu sahədə görüləsi xeyli iş var: "Kölgə iqtisadiyyatı hər zaman iqtisadiyyat üçün qorxulu və arzuolunmaz haldır. Ancaq, buna baxmayaraq, bu hər zaman olub. Bütün mümkün vasitələrlə çalışmaq lazımdır ki, bunun qarşısı alınsın. Bunun başlıca şərti maliyyə aşkarlığıdır. Sahibkarların fəaliyyəti, gəlirləri aşkar olmalıdır. Deklorasiya təqdim etməlidirlər. İnsanların yaşayış tərzini, xərclərini müəyyən mənada hamı bilməlidir və bunun əsasları olmalıdır. Gəlirlərlə xərclər arasında bir mütənasiblik olmalıdır. Son zamanlar Azərbaycanda kölgə iqtisadiyyatının azaldılması üçün müəyyən işlər görülür. Aparılan islahatların əksəriyyəti kölgə iqtisadiyyatının minimuma endirilməsinə hesablanıb. Bu sahədə müəyyən nəticələr var. Belə ki, iş yerlərində əmək müqaviləsi bağlayanların sayı artıb, məvaciblər kartla verilir və s. Ancaq bütün bunları tam yetərli hesab etmək olmaz. Ona görə ki, ölkədə nağdsız hesablaşmaların həcmi elə də böyük deyil. Bu sahədə hələ görüləsi bir sıra işlər var. Hələ də bəzi biznes qurumları gəlirlərini gizlətmək istəyir, vergidən yayınmağa çalışırlar. Ona görə də biz bütün kompleks vasitələri işə salıb kölgə iqtisadiyyatını azaltmalıyıq. Kölgə iqtisadiyyatı azalsa, gəlirlər də, xərclər də artacaq. Ona görə də aparılan islahatların ən mühüm mərhələsi bilavasitə ölkədə olan kölgə iqtisadiyyatını yavaş-yavaş azaltmaq və onu aradan götürməkdir.

*"Hələ də bəzi biznes qurumları gəlirlərini gizlətmək istəyir, vergidən yayınmağa çalışırlar"*

Bunun üçün də birinci növbədə qanunlarda boşluq olmamalıdır. Qanunlar elə olmalıdır ki, bu heç kəsin mənafeyinə qulluq etməsin. Yalnız xalqın, cəmiyyətin mənafeyinə qulluq etməlidir.

Deməyim odur ki, qanunlarda hansısa boşluqlar da kölgə iqtisadiyyatına zəmin yaradır".

***Vidadi ORDAHALLI***

# Vahid Əhmədov KİVDF-nin fəaliyyətini qaralayan bir neçə uğursuz sabiq qəzetçilərlə eyni sırada dayandı

*Deputat Prezidentin mətbuat siyasətinə qərəzli tənqidi münasibət göstərdi...*

**Bu günlərdə millət vəkili Vahid Əhmədovun adından təəccüblə qarşılana biləcək bir məlumat yayıldı. Maraqlıdır ki, həmin münasibətində Vahid Əhmədov ölkə başçısının uğurlu layihələrindən biri olan Kütləvi İnformasiya Vafitələrinə Dövlət Dəstəyi Fondunun (KİVDF) fəaliyyətini kəskin tənqid edib.**







Bizə təəccüblü gələn məqam bu cür əsassız fikirlərin hansısa uğursuz sabiq baş redaktorun dilindən deyil, Vahid Əhmədovun adından tirajlanması oldu. Çünki məhz bu millət vəkili KİV-də tez-tez görünməyi xoşlayan, daim qəzetlərə müsahibə verən və ölkə başçısının siyasətini birmənalı şəkildə dəstəkləyən şəxs kimi özünü göstərir. Onda isə niyə Vahid Əhmədov ölkə başçısının uğurlu media siyasətini qaralamaq istəyən şəxslərlə eyni cəbhədə durmağa qərar verir? Ortaya çox ciddi təzadlı məqamlar çıxmış olur. Bunun üçün də biz ilk olaraq Vahid Əhmədovun özü ilə əlaqə saxlayıb həmin fikirlərin ona məxsus olub-olmadığını dəqiqləşdirmək istədik. Təəssüflər olsun ki, dəfələrlə etdiyimiz zəngə millət vəkili tərəfindən cavab verilmədi. Belə olan təqdirdə məsələyə başqa bir məntiqlə yanaşdıq. Hər halda, bir neçə gün əvvəl yayılan fikirlərdən Vahid Əhmədov narazı olsaydı, bunu təkzib edərdi. Bir də millət vəkilinin hansısa bir ifadəsi mübahisə doğurmur ki, onun məhz müəlliflə dəqiqləşdirilməsi olduqca zəruri sayılsın. Deputat KİVDF-nin fəaliyyəti ilə bağlı ətraflı mövqe ortaya qoyubsa, onda onun fikirləri ətrafında polemika açmağa dəyər.

Qərara gəldik ki, Vahid Əhmədovun səsləndirdiyi fikirlərlə bağlı KİFDF ilə yaxından əməkdaşlıq edən KİV rəhbərləri ilə bu mövzunu müzakirə edək.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vahid Əhmədov bildirib ki, bütün sahələrdə və qurumlarda olduğu kimi, media sahəsində də ciddi islahatlar aparılmalıdır: "Ümumiyyətlə, yaranan qurumlar effektiv işləməlidirlər, özlərini doğrultmalıdırlar. Cənab Prezident tərəfindən aparılan islahatların da son məqsədi məhz inkişafa nail olmaqdır. Bu baxımdan, Azərbaycan mediasında da ciddi islahatlara ehtiyac var. Mən bunu bir neçə dəfə söyləmişəm. Bu islahatları aparmaq lazımdır ki, mətbuat nüfuz qazansın və özünü saxlaya bilsin. Necə ki, iqtisadi, hüquq və digər sahələrdə uğurlu islahatlara start verilibsə, hesab edirəm ki, media sahəsində də böyük islahatlar olmalıdır".

V.Əhmədov deyib ki, hazırda KİVDF-nin fəaliyyətindən ciddi narazılıqlar mövcuddur:

"Bu narazılıqlar zaman-zaman Azərbaycanın bir sıra tanınmış və peşəkar jurnalistləri tərəfindən də dilə gətirilir. KİVDF və digər bu kimi media təşkilatlarının fəaliyyətinə dərindən baxmaq lazımdır ki, bu qurumlar özünü doğrulda bilib, yoxsa bilməyib. Bunu media sahəsində çalışan insanlar çox gözəl bilirlər. Mənim bildiyim məlumata görə, KİVDF-nin fəaliyyəti ilə bağlı jurnalistlər çox ciddi problemlərlə üzləşiblər. Bu sahədə müəyyən problemlər yaranıb. KİVDF-nin ədalətsiz fəaliyyətindən narazı qalan jurnalistlərimiz var. Bu problemi ümumi kontekstdə həll etmək lazımdır. Yəni Azərbaycanda aparılan dərin islahatlar kontekstində KİVDF-nin də fəaliyyətinə də baxmaq lazımdır".

Deputat qeyd edib ki, hazırda Azərbaycan mətbuatında çox ciddi monopoliya mövcuddur:

"Mən sizə açıq deyim ki, mətbuatımızda çox ciddi monopoliya var. Mən islahatlar deyəndə əsasən də bu problemin aradan qaldırılmasını nəzərdə tuturam. Yəni bu sahədə mövcud olan monopoliya aradan qaldırılmalıdır. Dövlətdən vəsait alan qəzet və saytların əksəriyyətinin arxasında müəyyən qüvvələr dayanır və onları maliyyələşdirir. Üstəlik də dövlət tərəfindən onlara yardımlar edilir. Halbuki, həmin KİV-lər bazarın ixtiyarına buraxılmalı idi ki, özü-özünü doğrultsun. Əgər imkanı, peşəkarlığı olacaqsa, o yaşayacaq. Peşəkarlığı olmayacaqsa, o zaman gedib başqa işlə məşğul olacaq. Bütün dünyada media bu cür fəaliyyət göstərir. Yəni KİV-i öz peşəkarlıqlarına görə bazar özü tənzimləməlidir. Dövlət hər dəfə bu qəzetlərə milyonlar xərcləyir, onları saxlayır. Axı bu, uzun müddət belə davam edə bilməz!".

Media sahəsində peşəkar olmayan Vahid Əhmədovun səsləndirdiyi absurd fikirlər doğrudan da təəccüb doğurur. Media Vahid Əhmədovun yaxından təmasda olduğu iqtisadiyyat sahəsi deyil ki, orada dövr edən böyük pulları əldə etmək istəyi monopoliyanın yaradılmasını şərtləndirsin. İş olan yerdə narazılıqlar ola bilər. Kimlərsə, fərd olaraq, KİVDF-dən də narazı qala bilərlər. Amma gəlin araşdıraq görək, həmin narazılıqlar nə dərəcədə obyektivdir? Bəllidir ki, narazılıqları edənlər bir çevrədə təmsil olunurlar. Vaxtilə mediadan böyük qazanc götürmüş həmin şəxslərin ortaya qoya biləcək heç bir KİV layihəsi mövcud deyil. Necə deyərlər, yeyib, üstündən də su içiblər. 3-4 nəfər uğursuz keçmiş baş redaktorlardan ibarət həmin çevrənin əsas istəyi isə mediadakı bütün prosesləri tam ələ almaqdır. İstisna deyil ki, KİVDF-yə nəzarət etmək də tam ürəklərindən keçir. Belə insanlar hansısa polemikada, tənqidi fikirlərdə səmimi ola bilməzlər. Çünki ortada qərəzli mövqe var.Vahid Əhmədovun həmin dairələri üzünə tutacaq edərək, mötəbər mənbə kimi onlara istinad etməsi başadüşülən deyil. Elə jurnalistər var ki, KİVDF-nin keçirdiyi müsabiqələri tənqid edir. Həmin jurnalistdən soruşanda ki, heç bir dəfə də olsun müsabiqəyə yazı veribsən? Cavabı "xeyr" olur. Bu yanaşma ilə prosesi necə tənqid etmək olar? Çox güman ki, Vahid Əhmədov KİVDF-dən narazılar deyəndə bu kateqoriya adamları nəzərdə tutur və onların fikirlərini etalon kimi qəbul etdirməyə çalışır.

Media kapitanları Vahid Əhmədovun səsləndirdiyi fikirlər barədə nə düşünürlər?

**"Açıq deyim ki, bir başda iki fərqli fikir durumunu Vahid müəllimə heç yaraşdırmazdım..."**

"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev məsələ ilə bağlı bunları dedi: "MM-in səlahiyyət müddətinin bitməsinə bir il qalmış Vahid Əhmədov özünə qətiyyən dəxli olmayan mətbuatdakı vəziyyətə qarşı qərəzli tənqid püskürməkdənsə, öz deputatlıq fəaliyyətinə aid işlərin sahmana salınmasına daha çox vaxt ayırsa yaxşı olar. Azərbaycanda siyasətçi və ya qəzetçi olduğu bilinməyən bir neçə sabiq və radikal qəzetçidən başqa heç kim KİVDF-nin bir qurum kimi özünü doğrultduğuna şübhə etmir. Bu adamlar isə KİVDF-nin maliyyə müsabiqələrində iştirak etmir, xaricdən də media üçün qrantlar almaq imkanlarından məhrum olublar. Eləsi var ki, cəmi bircə il qəzet çıxara bilib. Belə uğursuz adamların bugünkü Azərbaycan mediası və KİVDF barədə fikri heç vaxt soyuqqanlı və ədalətli ola bilməz. Çox təəssüf ki, Vahid Əhmədov aparıb özünü belə fikirli insanlarla bir sıraya qoyur. Bir tərəfdən Prezidentin siyasətinə dəstək verən bir deputat kimi sərfəli status daşıyasan, o biri tərəfdən məhz Prezidentin şəxsən özünün uğurlu layihələrindən biri olan KİVDF haqqında deyəsən ki, "özünü doğrultmur". Həm də bunu KİVDF-nin 10 illik ciddi nəticələrə malik fəaliyyətindən sonra deyəsən. Açıq deyim ki, bir başda iki fərqli fikir durumunu Vahid müəllimə heç yaraşdırmazdım. O hansı "tanınmış və əfsanəvi" jurnalistdir ki, KİVDF-nin fəaliyyətini tənqid edib? KİVDF-nin hansı işi ədalətsiz fəaliyyət nümunəsidir? Nə vaxt olub ki, "zaman-zaman KİVDF-yə qarşı narazılıqlar baş verib"? Vahid Əhmədovun bu mətləbləri haradan və hansı "dahi suflyordan" eşitdiyini deyə bilmərəm, ancaq çox təəccüblü və təəssüfedicidir. Vahid müəllimin fəaliyyətlərinin bəzi səhifələrini (olan və olmayan) sevimli mövzulara çevirmiş bir neçə reket media orqanına görə bütün ciddi mediadan qisas almaq yaxşı mövqe deyil. Ölkənin ciddi və KİVDF-nin dəstək sferasında olan qəzetlər Vahid Əhmədovla bağlı həmin "sevimli mövzulara" heç vaxt müraciət etməyib. Əgər Vahid Əhmədov buna görə hesab edirsə ki, mətbuatın nüfuzu qalmayıb, təsiri yoxdur və sair, ciddi mətbuat "sevimli mövzular" barədə öz sözünü deyə bilər.

Sözün açığı, KİVDF-nin dövlətçilik, mətbuat və ictimai maraqlarla uzlaşan fəaliyyətinə belə qərəzli münasibət göstərməyi Vahid Əhmədovdan gözləməzdim, hələ də inanmaq istəmirəm ki, o sözləri Vahid müəllim həqiqətən deyib.

(Ardı 5-ci səh.)

(Əvvəli 4-cü səh.)

Çünki yazı-pozu və fəal siyasət, düşüncə adamları Vahid Əhmədovu maraqlı və düşündürücü fikirlər deyən adam kimi tanıyıblar. Doğrudur, indiyə qədər onun iqtisadiyyatdakı proseslər barədə apardığı təhlil və proqnozların özünü doğrultduğunu eşitməmişəm. Ancaq yanaşmaları maraqlı olub. Təəssüf ki, bu sözləri onun mətbuat və KİVDF barədə fikirləri üçün deyə bilmirəm. Mətbuat haqda müsahibəsi nə dəqiq, nə də maraqlı oldu!

Fikrimcə, belə haqsız fikirlərlə ölkə mediasının böyük bir hissəsinin əleyhinə getdi və yəqin ki, uyğunsuz tənqidə görə onu qınayanlar çox olacaq".

### "KİVDF o qəzetlərə pul ayırır ki, onlar həqiqətən ictimai-siyasi proseslərə təsir etmək gücündədirlər"

Rus dilində nəşr edilən "Novoye vremya" qəzetinin baş redaktoru Şakir Habiloğlu "Bakı-Xəbər"ə bildirdi ki, Vahid Əhmədovun öz sahəsinə aid olmayan bir mövzu ilə bağlı belə yanlış münasibət sərgiləməsini təəccüblə qarşılayıb: "Vahid Əhmədov yaxşı olar ki, gedib öz sahəsində problemlər axtarsın. Azərbaycan iqtisadiyyatında həlli vacib olan kifayət qədər mövzu var. Onları niyə araşdırmır? Deyir ki, KİVDF-də monopoliya var. Monopoliya deyəndə nəyi nəzərdə tutur, ona anlaya bilmirəm. Həmin fonddan müxtəlif növ qəzetlər maliyyə alır. Mən özümüzü misal çəkə bilərəm. Biz tam müstəqil qəzetik. Bizə maliyyə verilsə də, kimsə demir ki, nəyi necə yazın. Öhdəliyimiz yalnız müqavilə imzaladığımız layihə ilə bağlı məqamları icra etməkdir. Bunun nəyi pisdir ki? KİVDF o qəzetlərə pul ayırır ki, onlar həqiqətən ictimai-siyasi proseslərə təsir etmək gücündədirlər. Müstəqil qəzetin baş redaktoru kimi tam səmimiyyəti ilə deyə bilərəm ki, Vahid Əhmədov düz danışmır. KİVDF özünü necə doğrultmur ki, bu günə qədər ölkədə çap mətbuatı yaşayır. Sizi əmin edirəm ki, KİVDF olmasaydı, bu gün gördüyünüz qəzetlər çoxdan fəaliyyətini dayandırmışdı. Qəzetlərə əlavə nəfəsi dövlət məhz həmin fond vasitəsilə verdi. Bilirsiniz, iş olan yerdə müəyyən tənqidlər olar. Bu normaldır. Ancaq tənqidlər faktlara, obyektivliyə söykənməlidir. Vahid Əhmədovun danışdıqları isə yalnız ümumi sözdən başqa nəsə deyil. KİVDF-nin 10 yaşı var. Elə də köhnə təşkilat deyil ki, bütün problemləri birdən həll etsin. Münasibətindən də görürünr ki, Vahid Əhmədov üçün bu sahə çox yaddır, yaxşı olar özünə doğma olan iqtisadiyyatdan danışsın".

### "Əgər o, ölkənin aparıcı jurnalistlərinin narazı qaldığını deyirsə, yaxşı olardı ki, konkret adlar çəksin"

"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli də "Bakı-Xəbər"ə açıqlamasında Vahid Əhmədovun fikirlərinin tamamilə yanlış olduğunu bildirdi: "Mən bilmirəm, Vahid Əhmədov bu informasiyaları haradan alıb və nəyə əsasən elə fikirlər səsləndirir? Söhbət KİVDF-dən maliyyələşən ölkənin aparıcı media qurumlarından gedirsə, burada seçim çox düz edilib. Yəni KİVDF bir sıra ciddi parametrləri nəzərə alaraq bu maliyyələşməni aparır. Əgər Vahid Əhmədov çap mediasında onlara alterantiv tanıyırsa, buyursun, adlarını təqdim etsin. Əgər o, ölkənin aparıcı jurnalistlərinin narazı qaldığını deyirsə, yaxşı olardı ki, konkret adlar çəksin. KİVDF qəzetləri maliyyələşdirdiyi üçün yəqin ki, Vahid Əhmədovun iradları çap mediası ilə bağlıdır. O bizim qarşımıza daha peşəkar jurnalisti çıxaracaqsa, buyursun. Baxaq görək həmin jurnalistin narazılığı nədən ibarətdir? Əslində, tüstünün haradan çıxdığı məlumdur. Bir qrup jurnalist var ki, xaricdən media adı ilə aldıqları bütün qrantları həzmdən keçirəndən sonra KİVDF ilə bağlı narazılıqlarını bildirib. Görünür, Vahid Əmədovun gözündə ölkənin aparıcı jurnalistləri məhz həmin adamlardır. Seçim onundur, amma düşünürəm ki, səsləndirdiyi fikirlər həqiqətdən tamamilə uzaqdır".

### "Bu gün çap mediasının nümunələri ayaqda qalıbsa, biz buna görə KİVDF-yə borcluyuq"

"Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev də qəzetimizə açıqlamasında Vahid Əhmədovun fikirləri ilə razılaşmadığını söylədi: "Dövlətin söz azadlığına verdiyi ən böyük dəstəyin bariz nümunələrindən biri də KİVDF-nin yaradılması oldu. Həmin qurumun fəaliyyəti konkret konsepsiyaya uyğun şəkildə həyata keçirilir. Fond indiyə qədər keçidiyi yolda KİV-lə dövlət arasındakı münasibətləri lazımi şəkildə tənzimləyə bildi. Bu gün çap mediasının nümunələri ayaqda qalıbsa, biz buna görə KİVDF-yə borcluyuq. Həmin fond olmasaydı, bu gün çap olunan qəzetlərin duruş gətirməsi çətin olardı. Fond çox mühüm istiqamətlər üzrə layihələrin maliyyələşməsini həyata keçirir. Bunların da cəmiyyətə çatdırılması çox vacibdir. Kimsə bu uğurlu fəaliyyəti başqa səmtə yönəltmək istəyirsə, düz etmir. Biz bu mövqedə olan adamları tanıyırıq. Mediada heç bir uğur qazana bilməyən, rəhbərlik etdikləri media qurumlarını tarixin arxivinə göndərən Mehman və Arif Əliyevləri, Qulu Məhərrəmliləri tanıyırıq. Düzü, Vahid Əhmədovun da həmin çevrədə yer almasını anlaya bilmədim".

### "...dövlət qəzetlərin bir tarix olduğunu nəzərə alaraq, qəzetlərin yaşaması üçün bir mexanizm ortaya qoyub"

Əməkdar jurnalist, "Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, KİVDF-yə yönələn vəsaitlər dövlət büdcəsindən olduğu üçün, bu sahəyə ictimai nəzarətin olması normaldır: "Ancaq təəssüflər olsun ki, bəzən bu ictimai nəzarətdə qərəz elementləri açıq nəzərə çarpır. Bəzən belə bir görüntü yaradılır ki, dövlət büdcəsindən ayrılan vəsaitləri qəzetlər lazım olan istiqamətdə xərcləmirlər. Mənim baş redaktoru olduğun "Kaspi" qəzetinin aylıq mətbəə xərci bizim 2019-cu ilin mart ayının sonuna qədər KİVDF-dən aldığımız vəsaitdən çox idi. Belə olan halda, həmin vəsaitdən bizim başqa məqsədlər üçün istifadə etməyimiz qeyri-mümkündür.

Bilirsiniz ki, aprel ayından etibarən maliyyələşmə şkalalara ayrıldı və gündəlik qəzetlərə ayda 20 min ayrılmağa başladı. Yalnız indiki şəraitdə biz tam özümüzü maliyyələşdirə bilirik. Bilirsiniz ki, indiki şəraitdə qəzet çıxarmaq, onun satışını təşkil etmək şox çətindir. Dövlətin yardımı olmadan bunu etmək mümkün deyil. KİVDF-nin maliyyələşdirdiyi qəzetlərin xərci ilə yaxşı bir onlayn resurs saxlamaq olar. Amma görürsünüz ki, dövlət qəzetlərin bir tarix olduğunu nəzərə alaraq, qəzetlərin yaşaması üçün bir mexanizm ortaya qoyub. Bunun müqabilində bu sahəyə aidiyyəti olmayan şəxslərin həqiqətlə uzlaşmayan açıqlamalar verməsi təəssüf doğrurur. Mən inanmıram ki, qəzet sənayesindən az-çox başı çıxan adam Vahid Əhmədovla razılaşa bilsin".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyan korrupsiya ilə mübarizənin səmərəli formasını tapa bilmir - indi də korrupsiya məhkəmələri yaradır...

## *Hatəm Cabbarlı: "Başlıca məqsəd büdcəni doldurmaqdır"*

**Ermənistan korrupsiya ilə mübarizənin yeni metodlarını arayır. Bir müddət əvvəl Paşinyan bununla bağlı hətta dövlət qurumu da təsis etmişdi. Ancaq görünən budur ki, effekti olmayıb. Təsadüfi deyil ki, Ermənistanın ədliyyə naziri Rüstəm Baqdasaryan ABŞ-ın həmin ölkədəki səfiri Linn Treqsi qəbul edib və bu istiqamətdə söhbət ediblər.**



Ədliyyə naziri səfirin diqqətinə çatdırıb ki, bu yöndə işlərin effektini artırmaq üçün Antikorrupsiya məhkəməsi adlı yeni təsisatın yaradılmasını nəzərdə tuturlar. Onun vasitəsilə gəlir bəyannamələrinin verilməsində şəffaflığı, müsadirə institutunun daha da gücləndirilməsini istəyirlər.

ABŞ səfiri bildirib ki. bu istiqamətdə Ermənistana istənilən köməyi etməyə hazırdırlar. Maraqlıdır ki, Ermənistan kiçik ölkə olmasına baxmayaraq, korrupsiya ilə mübarizə sahəsində effektiv metod tapa bilmir. Bu nə ilə bağlıdır?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə bildirdi ki, Ermənistanda Nikol Paşinyanın rəhbərliyi altında baş tutan "məxməri inqilab" ölkədə siyasi institutlara tam olaraq nəzarəti bərqərar edə bilməyib: "Bunu biz Nikol Paşinyanın son bir il yarımlıq hakimiyyətinə diqqət etdikdə aydın şəkildə görürük. Paşinyan Baş nazir kimi öz kreslosunu nə qədər bərkitsə də, bütün qurumlara nəzarət sahəsində ciddi çətinliklər yaşayır.

### *"Paşinyan boş büdcə ilə xalqa verdiyi vədləri yerinə yetirə bilmir"*

Bu özünü daha çox Köçəryanın həbsdən azadlığa buraxılması məsələsində büruzə verdi. Köçəryanın iki dəfə ard-arda həbs edilməsi Nikol Paşinyan hakimiyyətinin məhkəmələr üzərində nəzarəti tam bərpa edə bilmədiyinə dəlalət edirdi.

Ermənistanda islahat adı ilə proseslər çox sancılı gedir. İstənilən nəticənin alına biləcəyi böyük sual altındadır. Ədliyyə naziri ABŞ səfiri ilə korrupsiya ilə mübarizə metodlarını müzakirə ediblər. Qeyd etmək lazımdır ki, Ermənistanda korrupsiya ilə mübarizə aparan qurum var. Görünən budur ki, həmin qurum da lazım olan nəticəni vermir. Ona görə də yeni yollar arayırlar. Başlıca məqsəd büdcəni doldurmaqdır. Çünki Paşinyan boş büdcə ilə xalqa verdiyi vədləri yerinə yetirə bilmir. Bütün bunlar büdcəni doldurmaq üçün ortaya atılıb".

***Məhəmmədəli QƏRİBLİ***

# Prezidentin əsaslı iradına qədər Bakını işıqlandırmalı olanlar hara baxırdı...

**Məlum olduğu kimi, iyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə ölkə başçısı küçələrin işıqlandırılması məsələsinə həssaslığını bir daha nümayiş etdirdi.**



Bununla bağlı danışan Prezident küçə işıqlandırılmasının hələ də lazımi səviyyədə olmadığını bildirib. Ölkə başçısı müşavirədə göstəriş də verib və qeyd edib ki, bu məsələyə çox ciddi diqqət göstərilməlidir.

İ.Əliyev çıxışı zamanı bildirib ki, Bakıda küçə işıqlandırılması hələ də lazımi səviyyədə deyil. Şəhərin mərkəzi təbii ki, işıqlandırılır, ancaq bəzi yerlərdə küçə işıqlandırılması yoxdur.

Maraqlıdır, Bakıda küçələrin işıqlandırılması sahəsində problemin olduğu dəfələrlə gündəmə gətirilsə də, aidiyyəti qurumlar bir tək mərkəzi küçələrin yollarını işıqlandırmaqla kifayətlənib. Ancaq kənar ərazilərdə isə küçələr işıqlandırılmayıb.

Məsələ ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə müraciət etdik. Bakı Şəhər İcra Hakimiyyətindən "Bakı-Xəbər"ə bildirildi ki, Prezidentin müşavirədəki tapşırığı ilə bağlı iclas keçirilməsi və müvafiq qərarların qəbulu nəzərdə tutulur. Bu barədə mediaya geniş açıqlama veriləcək.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Anar Nəcəfli qeyd etdi ki, yolun əsaslı təmiri zamanı işlər layihəyə uyğun həyata keçirilir: "Yenidənqurma həyata keçirilərkən, layihə üzrə həmin yolda işıqlandırma sisteminin quraşdırılması nəzərdə tutulubsa, quraşdırılır. Yox, əgər nəzərdə tutulmayıbsa, quraşdırılmır. Dirəklər quraşdırıldıqdan sonra istismar olunmaq üçün aidiyyəti üzrə təhvil verilir. Agentlik sırf Bakıda yolun hərəkət hissəsinin işıqlandırılmasına cavabdehdir.

Mövcud qanunvericiliyə uyğun olaraq, AAYDA yolun kənarları, səki hissələri, orada yerləşən işıq dirəkləri və digər əhəmiyyətli kommunikasiyalara cavabdeh deyil. Biz yolun təmiri zamanı asfalt örtüyünü təmir edirik. Əgər ərazidə işıqlandırma yoxdursa, asfalt örtüyünün təmiri zamanı orada işıq dirəyi quraşdıra bilmərik. Bu bizim səlahiyyətimizdə deyil. Yolun kənarında quraşdırılan işıq dirəkləri həmin rayon üzrə icra hakimiyyətlərinin cavabdehliyindədir. Biz yeni yollar inşa etdikcə, işıqlandırma sistemini də quraşdırırıq. Amma mövcud yolların təmiri zamanı işıq dirəklərini quraşdırmağa, kommunikasiya xətləri çəkməyə ixtiyarımız yoxdur".

***Bakı Şəhər İcra Hakimiyyəti:* "Prezidentin müşavirədəki tapşırığı ilə bağlı iclas keçirilməsi və müvafiq qərarların qəbulu nəzərdə tutulur"**

***Anar Nəcəfli:* "Qanunvericiliyə uyğun olaraq, AAYDA yolun kənarları, səki hissələri, orada yerləşən işıq dirəkləri və digər əhəmiyyətli kommunikasiyalara cavabdeh deyil"**

***Azər Allahverənov:* "Küçələrin lazımi dərəcədə işıqlandırılmaması piyadaların vurulmasına səbəb olur"**

Sosial sahə üzrə ekspert Azər Allahverənov bizimlə söhbətində qeyd etdi ki, bu gün bəzi küçələrin işıqlandırılması sahəsində ciddi problem yaşanır: "Küçələrin lazımi dərəcədə işıqlandırılmaması piyadaların vurulmasına səbəb olur. Prezident İlham Əliyev müşavirədə küçələrin işıqlandırılması sahəsində vəziyyətin istənilən səviyyədə olmaması probleminin aktuallığını gündəmə gətirdi. Danılmaz faktdır ki, mərkəzi küçələr istisna olmaqla, kənar ərazilərin yollarında işıqlandırma ya zəifdir, ya da ümumiyyətlə yoxdur".

Həmsöhbətimiz onu da vurğuladı ki, şəhərin mərkəzi küçələrinin məhəllələrində belə işıqlandırma yox səviyyəsindədir: "Küçələrdə yolların işıqlandırılması arzuolunan hal deyil. Ola bilsin ki, bəzi qurumlar enerjiyə qənaət etmək üçün hansısa küçələrdə işıqları söndürür. İstənilən halda, küçələrdə təhlükəsizlik yüksək səviyyədə olmalıdır ki, əhalinin rahatlığı təmin olunsun. İctimai asayiş, ictimai təhlükəsizlik baxımından hansısa qənaət rejimindən söhbət gedə bilməz. Nəzərə almaq lazımdır ki, insan sağlamlığı hər şeydən üstün olmalıdır".

Ekspert təklif edir ki, küçələrin işıqlandırılıb-işıqlandırılmaması ilə bağlı monitorinq keçirilsin: "2018-ci il dekabrın 28-də Yol hərəkətinin təhlükəsizliyinə dair Dövlət Proqramı qəbul olundu. Həmin proqramın 7 - 7.2 bəndində avtomobil yollarının işıqlandırılmasına toxunulub. Həmin bənddə konkret olaraq göstərilir ki, avtomobil yolları müasir standartlara cavab verən süni işıqlandırma sistemləri, qurğuları ilə təmin olunmalı, habelə yolların işıqlandırılmasında alternativ enerji mənbələrindən istifadə edilməli və onların yararlı vəziyyətdə saxlanması üçün mütəmadi olaraq tədbirlər görülməlidir. Qeyd edim ki, bu Dövlət Proqramı 2019-2023-cü illəri əhatə edir".

***Günel CƏLİLOVA***

# Ölkədə ən iri nağd ödəniş sahələri - "novostroyka" mənzillər və avtosalonlarda satış...

**Məlum olduğu kimi, dövlət başçısının rəhbərliyi ilə keçirilən toplantıda Prezident İlham Əliyev nağdsız ödənişlərin aşağı səviyyədə olmasına diqqət çəkib. Bu sahədə ciddi addımların atılmasının vacibliyini qeyd edib. Prezident müşavirədə nağdsız ödənişlərin artırılması ilə bağlı tapşırıqlarını verib. Bununla bağlı mühüm fikirlər səsləndirib.**



***Rəşad Həsənov:* "10 min manatlıq avtomobil nağdsız formada satılırsa, buna görə 18 faiz ƏDV ödənilməlidir"**

Nağdsız hesablaşmaların aşağı səviyyədə olmasının səbəblərini Maliyyə Bazarlarına Nəzarət Palatası, Mərkəzi Bank və digər aidiyyəti qurumlar da bilir. Dünya təcrübəsi göstərir ki nağdsız hesablaşmanı artırmaq üçün stimullaşdırma, həvəsləndirmə çox vacibdir. Bu sahədə bir sıra addımlar atılsa da, görünür, yetərli deyil. Ona görə də ortada arzuedilən nəticə yoxdur. Məsələn, tutaq ki, vətəndaşın bankdakı VÖEN hesabına vəsait daxil olub. Təbii ki, vətəndaş bu vəsaiti banka getmədən kart hesabına köçürüb nağdsız istifadə etmək istəyəcək. Ancaq mövcud tənzimləmə bu vəsaiti nağdlaşdırmağa yönəldir. Bunun üçün vətəndaş gərək mütləq banka getsin, vəsaiti nağdlaşdırsın və sonra istəsə karta köçürmə edə bilər. Səbəb isə nağdlaşdırma ilə bağlı 1 faizlik verginin mövcud olmasıdır. Ekspertlərin fikrincə, bu, yoluna qoyulsa, vəziyyət dəyişə bilər.

Ancaq o da məlum faktdır ki, bir sıra sahələrdə, ümumiyyətlə, hesablaşmalar nağdsız aparılmır. Məsələn, yeni tikilən "novostroyka"larda mənzillərin satışı yalnız nağd formada həyata keçirilir. Hələ indiyə qədər rast gəlinməyib ki, hansısa mənzilin satışı nağdsız hesablaşma ilə aparılsın. O cümlədən, avtomobil satışı ilə məşğul olan avtosalonlar da hesablaşmanı nağd aparırlar. Hər iki sahədə böyük alqı-satqı işlərinin aparıldığını nəzərə alsaq, söhbət böyük məbləğdə vəsaitdən gedir. O üzdən yaxşı olardı ki, bu sahələrdə də hesablaşmalar nağdsız formada aparılsın. Bunun faydası daha çox olar.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən iqtisadçı-ekspert Rəşad Həsənovun sözlərinə görə, nağdsız hesablaşmalar bütün dünyada dövriyyənin gizlədilməsinə qarşı həm də bir mübarizə metodudur: "Çünki nağdsız hesablaşma zamanı, avtomatik olaraq, dövriyyə qeydiyyata düşür və buna uyğun olaraq da subyektə vergi öhdəlikləri müəyyənləşdirilir. Azərbaycanda mənzil və avtomobil satışında nağdsız ödənişlərdən istifadə edilməsi birbaşa olaraq qiymətlərin artmasına gətirib çıxarır. Çünki bu zaman satan tərəf qarşı tərəfə daha yüksək qiymət təklif edir. Məsələn, 10 min manatlıq avtomobil nağdsız formada satılırsa, buna görə 18 faiz ƏDV ödənilməlidir. Bu zaman 10 minlik avtomobil müştəriyə hardasa 12 minə başa gəlir. Ona görə də iki tərəf razılığa gələrək bunu nağdsız yox, nağd formada həyata keçirir. Bənzər metod digər lüks kateqoriyalı əmtəələrin alış-satışında da keçərlidir. Bu baxımdan da mənzil və avtomobil satışı nağdsız formada aparılmır. Ona görə də elə təşviq mexanizmi yaradılmalıdır ki, alan və satan tərəf nağdsız ödənişlərdə maraqlı olsun. Məsələn, biz təklif edirdik ki, sahibkarlıq subyektləri ikili bəyannamələr versinlər. Biri nağd ödənişlərlə bağlı, digəri nağdsız ödənişlərlə. Nağdsız ödənişlərə müəyyən dövr üçün vergi güzəşti tətbiq edilməlidir. Bu olarsa, bu sahədə vəziyyət düzələ bilər".

***"Nağdsız ödənişlərə müəyyən dövr üçün vergi güzəşti tətbiq edilməlidir"***

***Vidadi ORDAHALLI***

# Fəzail Ağamalı Fazil Mustafanın şiəlikdən sünniliyə keçdiyini dedi...

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafanın Şah İsmayıl Xətainin adına olan medalın ləğv edilməsi barədə çağırışından sonra yaranan qalmaqal səngiməк bilmir. Fazil Mustafanın fikirləri ilə razılşamayanlardan biri də onun həmkarı Fəzail Ağamalı olub.**



## Fazil Mustafa: *"Bu, Azərbaycan aliminin din mövzusunda nə dərəcədə məlumatsız olduğunun göstəricisidir"*

Maraqlıdır ki, Fəzail Ağamalı Fazil bəyin belə fikirlər səsləndirməsini dindəki təriqət amilə ilə əlaqələndirib və deyib ki, bir neçə il öncə Fazil bəyə bu barədə çox sərt cavab verib: "Tarixi faktlarla əsaslandırmışam ki, Şah İsmayıl Xətainin üzərinə bu şəkildə getmək Azərbaycan tarixini, özü də şərəfli tarixini təhqir etmək deməkdir. Belə mövqe Fazil bəy tərəfindən doğru deyil. O, təbii ki, ziyalıdır, yüksək intellekti var, məlumatlıdır. Amma tarixçi deyil. Onda tarixi təfəkkür yoxdur. Şah İsmayıl Xətaini Bütöv Azərbaycanın banisi kimi dəyərləndirmək və ona hörmət etmək lazımdır. Məncə, Fazil Mustafanın Xətaiyə münasibəti təriqətçilikdən irəli gəlir. Bəlli olduğu kimi Fazil bəy, bildiyim qədəri ilə, kökü şiə olmasına baxmayaraq, Türkiyəyə gedib-gəldikdən sonra sünniliyi qəbul edib. Görünən odur ki, təriqətdən irəli gələn təriqət təəssübkeşliyidir ki, Fazil bəy hər zaman Şah İsmayıl Xətainin üzərinə gedir. Xətai Bütöv Azərbaycan dövlətinin banisidir. Müəyyən zamanda o, hakimiyyətdə olduğu illərdə Azərbaycan dilini dövlət dili elan edib. Diplomatik yazışmalarda rəsmi dil kimi dilimizdən istifadə olunub. Bu həmin dövr üçün çox ciddi bir hadisə kimi dəyərləndirilməlidir. Onunla bağlı Oqtay Əfəndiyevin, dəyərli həmkarımız, akademik Yaqub Mahmudovun ciddi araşdırmaları var. Bunu oxumaq lazımdır. Fazil bəy əgər tarixi öyrənmək istəyirsə, həmin tədqiqatlara müraciət edib, faktları öyrənə bilər. Bu, siyasət, konyunktura deyil, tarixdir. Faktiki olaraq Fazil Mustafa Şah İsmayılın üzərinə getməklə, Azərbaycan tarixinə böhtan atmaqla kifayətlənmir, onu təhqir edir. Bu yaramaz. Dəfələrlə ona demişəm ki, dayan, etmə".

Göründüyü kimi, Fəzail Ağamalı həmkarının mövzuya münasibətini onun təriqətini dəyişməsi amili izah etməyə çalışıb. Məsələyə aydınlıq gətirmək üçün Fazil Mustafanın özü ilə əlaqə saxladıq. Millət vəkili "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Fəzail bəyin fikirləri ilə tanışdı: "Mən təəssüf edirəm ki, Fəzail bəy mövzunu problemin əsl mahiyyətindən kənara çəkməyə çalışır. Bu, Azərbaycan aliminin din mövzusunda nə dərəcədə məlumatsız olduğunun bir göstəricisidir. Hiss olunur ki, o mənim təriqətimi dəyişməyimlə bağlı dərindən araşdırmadan ifadələr işlədir. Özünə sünni və şiə deyən hər kəsi mən axmaq hesab edirəm. Çünki İslamda təriqət anlayışı yoxdur. Bu dini kim qəbul edirsə, özünə müsəlman deməlidir. Bu heç peyğəmbər dönəmində də olmayıb. Bizim bu yöndə nəyisə dəyişməyimiz də mümkün deyil. Söhbət əgər kiminsə hansısa fərqli formada ibadətindən gedirsə, bu da hər kəsin müstəqil seçimi ola bilər. Din, kitab, peyğəbər birdisə, əlavə yeniliklərə ehtiyac yoxdur. Mən başa düşmürən, niyə mövzunu bura yönəldirlər? Təəssüf edirəm ki, bu gün bizim bir çox vətəndaşımız tarixdən özləri üçün şah və dəyər axtarır. Azərbaycanın ən böyük dəyərlərindən biri onun müstəqil dövlətini quran Məmməd Əmin Rəsulzadədir. Bəziləri isə bunu kimin daha çox ərazi tutmağı ilə əlaqələndirməyə çalışır. Başqa dəyərimiz Dədə Qorqud mədəniyyətidir. Eyni zamanda milli baxımdan ən böyük dəyərimiz Nadir şahın gətirdiyi konsepsiyadır. O da bütün məzhəbçiliyi rədd edirdi və dinin bütövlüyünü irəli sürürdü. Əgər bir ziyalı olaraq mən xurafatı, mövhumatı dəstəkləmirəmsə, tam doğru edirəm. Düzdür, kütlə bununla razılaşmaya bilər. Amma ziyalılar kütlənin necə düşündüyü ilə hərəkət etməlidir. Siz XIX-XX əsrlərdə yaşamış bizim mütəfəkkirlərimizə baxın. Axundovu, Zərdabini, Mirzə Cəlili, Rəsulzadəni, Əhməd bəy Ağaoğlunu oxuyun. Görün onlar həmin xurafatı qəbul ediblərmi? Necə olur ki, Seyid Əzim, Sabir belə halları tənqid edib, amma indiki müasir zamanda biz danışmağa qorxuruq? Kimlərsə özünə elmlər doktoru deyir və bunu təqdir edir. Mən dinin siyasət üstündə olmasının əleyhinəyəm. Bu, insanın vicdan azadlığı ilə bağlı olan məsələdi. Biz dini qəbul etməyənlərə də dözümlü yanaşmalıyıq. Hər hansı təriqətçilik və məzhəbçilik önə çıxarılmamalıdır. Təəssüflər olsun ki, biz əksər hallarda bu dəyərlərin təbliğində türk vücudunda irançı düşüncəni daşıyanlara rast gəlirik. Azərbaycanlıların çoxu səfəvi və başqa adlarla irançı düşüncənin daşıyıcılarıdır. Şah axtarırlarsa, elə babamız olan oğuzların ilk gəlişini təmin edən Toğrul şahı tənənnüm etsinlər".

*"Özünə sünni və şiə deyən hər kəsi mən axmaq hesab edirəm"*

*Məhəmmədəli* **QƏRİBLİ**

# Almaniya ABŞ-ın İrana qarşı Hörmüz boğazına hərbi qüvvə göndərmək təklifini rədd etdi



**Almaniya ABŞ-ın Hörmüz boğazında ticarət fəaliyyətinin təhlükəsizliyini təmin edən missiyada iştirak təklifini rədd edib.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, bu barədə Almaniya hökumətinin sözçüsü Ulrike Demmer açıqlama verib.

Hökumət sözçüsü ABŞ-ın bir neçə gün əvvəl Almaniyanın da aralarında olduğu bəzi müttəfiqlərinə Fars körfəzinə nəzarət etmək üçün missiyanın planını təqdim etdiyini və dəstək istədiyini bildirib.

Demmer Almaniya hökumətinin bu konkret təklifə "ehtiyatla yanaşdığını" və sözügedən plana hər hansı bir dəstək vermədiyini deyib: "Çünki İran siyasətimiz ABŞ-ın hazırkı yanaşmasından əhəmiyyətli dərəcədə fərqlənir".

Demmer bölgədəki dəniz təhlükəsizliyi mövzusunda Fransa və İngiltərə ilə təmasda olduqlarını bildirib: "Bizim üçün diplomatik yol tutmaq, İranla danışıqlar aparmaq, gərginliyi azaltmaq və nüvə sazişinin davam etdirilməsi istiqamətində işləmək vacibdir. ABŞ-ın rəhbərlik etdiyi bir missiyaya qoşulmaq bu işi çətinləşdirir".

Qeyd edək ki, ABŞ rəsmi olaraq Almaniyadan Hörmüz boğazında ticarət fəaliyyətinin təhlükəsizliyini təmin edən missiyada iştirak etməsini istəyib.

Berlindəki ABŞ səfirliyinin mətbuat katibi Tamara Sternberg-Greller deyib ki, "Biz Almaniyadan Hörmüz boğazının təhlükəsizliyini təmin etmək və İran təcavüzünə qarşı mübarizə aparmaq üçün Fransa və Böyük Britaniyaya qoşulmağı xahiş etdik".

# Usamə bin Ladenin oğlu öldürüldü...



**ABŞ mediası "Əl-Qaidə" terror təşkilatının keçmiş rəhbəri Üsamə bin Ladenin oğlu Həmzənin öldürüldüyü barədə məlumat yayıb.**

Baki-xeber.com xəbər verir ki, başına bir milyon dollar qoyulan Həmzənin öldürülməsi xəbəri hələlik Ağ Ev tərəfindən təsdiqlənməyib. NBC telekanalı və "New York Times" qəzeti Həmzənin öldürüldüyünü fərqli mənbələrin təsdiqlədiyini bildirir.

"New York Times" qəzeti bir az da irəli gedərək, 30 yaşı olduğu ehtimal edilən Həmzənin son iki ildə öldürüldüyünü, ancaq bunun təsdiqlənməsinin vaxt aldığını yazır. ABŞ fevral ayında Həmzənin yerini müəyyən etməyə imkan verən istənilən məlumata görə 1 milyon dollar dəyərində mükafat vəd etmişdi.

Üsamə bin Laden Amerika xüsusi təyinatlılarının 2011-ci ildə Pakistanda apardığı əməliyyat zamanı öldürülüb.

# ABŞ - İran qarşıdurmasında Azərbaycanın öz oyunu var - Qafqazın platsdarma çevrilməsinin qarşısı alınır

**ABŞ və İran arasında münasibətlər getdikcə kəskinləşir və Tehran rəsmilərinə qarşı Vaşinqtonun sanksiyaları da genişlənir. Artıq ABŞ İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifə qarşı da sanksiya tətbiq edib. Ağ Ev administrasiyasının yüksək rütbəli nümayəndəsi bu xüsusda bildirib:**

"Zərif İran rejiminin beynəlxalq ictimaiyyət qarşısındakı simasıdır və o, Tehranın nüvə proqramına dəstək, ballistik raket yaradılması və terror şəbəkələri üçün təbliğat və dezinformasiya aparılmasının başında durur". Amerikalı senator Dayenn Faynstayn isə bildirir ki, ABŞ hökumətinin Cavad Zəriflə bağlı verdiyi qərar yanlışdır: "Bu qərar bizi sülhə aparmır, onsuz da gərgin olan vəziyyəti daha da ağırlaşdırır".

"Jerusalem Post" qəzeti xatırladır ki, bundan əvvəl ABŞ prezidenti Donald Trampın ətrafındakı komanda yeni hədəflərə doğru yürüməyə başlayıb: aprel ayında İslam İnqilabı Keşikçiləri Korpusu və dini lider Ayətullah Əli Xamneiyə sanksiyalar tətbiq olunub: "ABŞ İrana hücumlarla bağlı xəbərdarlıq edib, dəniz və hava aktivlərini Körfəzə göndərib. Bununla birlikdə, İran tankerlərə həmlə edib və müttəfiqləri Səudiyyə Ərəbistanına qarşı həmlələrdə dron və raketlərdən yararlanıb. ABŞ-ın İraqdakı bazalarına atəş açılıb. Tehran, eyni zamanda, iyul ayında İngiltərənin bir İran tankerini ələ keçirməsinə cavab olaraq bir ingilis neft tankerini tutub.

Zərifə qarşı sanksiyalar da gözlənilən idi və bəziləri onun iyun ayında qüvvəyə minəcəyini düşünürdü. Lakin ABŞ əlində daha çox kart saxlamaq istəyirdi. Guya Zərifin sanksiya siyahısına salınması ABŞ-ın İranla yeni razılaşma tələbinin icrasını daha çətin vəziyyətə salacaqdı. Sövdəçini sanksiyalaşdırırsınızsa, yeni bir sövdə necə əldə edilə bilər? Ancaq ABŞ-ın hazırkı rəhbərliyi Zərifin gülümsəyən simasını və İranın baş izahçısı olmasını zərərli sayır. Bu onun Avropadakı qrafiklər kursundan və hətta Nyu-Yorka iyul səfərində BMT ətrafında kiçik bir radiusda hərəkətlərini məhdudlaşdırmaq istəyindən də aydın olur. Keçmişdə XİN rəhbəri ABŞ-a səfərlərdən birbaşa Amerika xalqına və yüksək səviyyəli demokratlara müraciət etmək fürsəti olaraq istifadə edib. Buna görə də o, öz lobbi aparatını yetişdirən təhlükə olaraq görülür".

İran tərəfi də məsələyə sərt reaksiya verib. Ekspertlər isə bildirir ki, proseslərin inkişaf axarı Tehran və Vaşinqton arasında savaşı getdikcə qaçılmaz edir. Hazırda elə bu fonda ABŞ İran ətrafına əlavə hərbi qüvvələrə cəmləşdirir. Fars körfəzində ABŞ hərbi texnikasının sayının artırılması da bunun təsdiqi sayılır. Digər bir məlumata görə isə, ABŞ İranla mümkün savaşda Qafqazı da əsas platsdarmlardan biri qismində nəzərdən keçirir.




Hesab edilir ki, bu xüsusda ABŞ üçün Gürcüstanla hansısa problem olmayacaq. Vaşinqton bu istiqamətdə İrəvanla da aktiv iş aparır. Erməni ekspert Aharon Vardanyan bildirir ki, bu xüsusda İrəvana ABŞ tərəfindən ciddi təzyiqlər var. Onun sözlərinə görə, Rusiya amili olmasa, ABŞ-ın Ermənistandan İrana qarşı istifadə etməsi daha asan olacaq. Azərbaycana gəlincə, ölkəmizilə bağlı vəziyyət fərqlidir. Bunu "Moskva-Baku" portalına müsahibəsində rusiyalı ideoloq, filosof Aleksandr Duqin də təsdiq edir. Onun sözlərinə görə, Qərbin İranla bağlı təzyiqlərinə rəğmən, Azərbaycan özünün əhəmiyyətini anlayaraq müstəqil siyasət yürüdür: "Bakı təslim olmur. Burada başlıcası bu kursu davam etdirmək, heç nədən qorxmamaq, beynəlxalq hüquq çərçivəsində hərəkət etməkdir. Real siyasətçi qorxudulmanın, Qərbin psixoloji hücumunun qurbanı olmamalıdır. Hzırda Qərbin bu hücumlarına təslim olsan, eyni metodologiya sənə qarşı da istifadə olunacaq: rəngli inqilablar, təzyiqlər və sair".

O, Rusiya və İran kimi, bir gün Azərbaycanın da öz üzərində Qərbin öldürücü olmayan zərbələrini hiss edə biləcəyini deyib: " Amerika Azərbaycana təzyiq etməyə cəhd etsə, Bakı rahatlıqla amerikalılara əvəz tapa bilər. Azərbaycanın bunun üçün hər şeyi var. Azərbaycanın Rusiya, Çin, İran, eləcə də sizin üçün qardaş ölkə olan Türkiyə ilə münasibətləri yaxşıdır. Bu gün ABŞ-dan narazı olanlar yeni qarşılıqlı fəaliyyət formatları axtarıb tapırlar. Azərbaycan öz milli maraqlarına əsaslanaraq rasional siyasəti dəstəkləyir. Azərbaycan yaxşı bilir ki, birqütblü dünyada heç bir suveren dövlət ola bilməz. İlham Əliyevin Rusiya-Azərbaycan-İran formatına dəstək siyasəti sadə, amma cəsarətli hesabla diqtə olunur".

Azərbaycanın İran məsələsində indiki mövqeyini qoruyacağını Avstriyanın "Contra Magazin" nəşri də xüsusi olaraq vurğulayır. "Contra Magazin" qeyd edir ki, ABŞ-ın İranla müharibəni qısa vaxtda udmaq üçün vasitələri yoxdur, ona görə də Vaşinqtonun ildırımsürətli qələbəsi istisnadır və bu müharibə onun on milyardlarla dollarını "uda" bilər: "Hələ ABŞ ordusunun canlı qüvvə və texnika itkiləri haqda danışmasaq, demək olar ki, müttəfiqləri bu müharibəyə qoşulmaq istəmədiyindən əsas zərbəni endirməyi ABŞ üzərinə götürməli olacaq. Bundan əlavə, qalib gəlmək üçün ABŞ nəhəng sayda quru qüvvələrini İrana yeritməlidir. Bu qoşunlar İrana ancaq qonşu ölkələr üzərindən keçə bilər. Təxmin etmək olar ki, nə Pakistan, nə Əfqanıstan, nə Türkmənistan, nə də Azərbaycan və İraq buna razılıq verərdi. Bu, on minlərlə alman, britaniyalı, fransız, polyak və ya ispan quru qoşunlarının İrana quru müdaxiləsini dəstəkləmək üçün cəmləşdirilməsinə də aiddir. Habelə, Rusiya və Çinin xəbərdarlıqları var. Hər iki ölkə bu müharibəni böyük səhv və təhlükəsizliyə qlobal təhdid sayır. Moskva İrana qonşu ölkələrə axın edib stabilliyi təhdid edə biləcək qaçqın seli barədə xəbərdarlıq edir. Lakin bu hələ hamısı deyil. İraqdan fərqli olaraq, İran hərbi baxımdan xeyli dayanıqlıdır. Onun yaxşı təlim görmüş və düzgün təchiz edilmiş ordusu var. Bundan əlavə, İranla müharibə ABŞ üçün həddən artıq baha başa gələ bilər. Vaşinqton Əfqanıstandakı müharibəyə bu vaxta qədər 3 trilyon dollardan çox xərclədiyi halda İranla müharibəni uda bilməzdi".

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Qondarma "DQR"də xaos salmaq istəyənlərə yüksək səviyyədə hədə-qorxu gəlindi...

**Zəbt edilmiş Azərbaycan ərazilərində son vəziyyətin təhlili burada da ermənilər arasında qarşıdurma və ziddiyyətin getdikcə kəskinləşməkdə olduğunu göstərir. Digər tərəfdən, Qarabağ separatçıları ilə İrəvan arasında da ziddiyyət tədricən özünün pik həddinə çatmaqdadır. Bu fonda Dağlıq Qarabağ bölgəsində yaradılmış separatçı rejimin daxilində siyasi çaxnaşmanın şiddətlənməsində İrəvanın da müəyyən qədər rolu var.**

İndilikdə yayılan məlumatlar göstərir ki, separatçı rejimin "rəhbəri" Bako Saakyan Qarabağda xaos yaratmaq istəyən qüvvələrin olduğunu və buna imkan verməyəcəklərini bəyan edib: "Hər kim əminamanlığı pozmağa cəhd etsə, cavabını alacaq". Onun bu bəyanatının daha çox Nikol Paşinyanın komandasına ünvanlandığı hesab olunur. Çünki Paşinyan "Qarabağ klanı"nın "son qalası" olan separatçı rejimi ələ keçirməyə hazırlaşır. Bunun üçün son tarix 2020-ci ildə keçiriləcək "prezident və parlament seçkiləri"dir. Hazırda Paşinyan "Qarabağ klanı"nın namizədlərinə qarşı alternativ namizədlərə dəstək verir. Belə namizədlərdən biri separatçı rejimin keçmiş "müdafiə naziri" Samvel Babayandır. Keçmiş hakimiyyətin dövründə Babayan Sarkisyana sui-qəsd ittihamı ilə həbs edilmişdi. Paşinyan onu barmaqlıqlar arxasından çıxarıb separatçı rejimi ələ keçirmək planına daxil etdi. Hazırda Babayan separatçı rejimin "prezidenti" olmaq üçün namizədliyini verməyə hazırlaşır, lakin "konstitusiya" ona bu imkanı vermir. Digər tərəfdən, mövcud separatçı rejim Babayanın namizədliyini qeydə almamaq üçün müxtəlif hüquqi manеələr yaradır. Babayanın komandası Qarabağda yerləşdirilmiş ermənilərdən imza toplamaqla bu hüquqi maneələri aşmaq niyyətindədir. "Past" qəzeti yazır ki, Babayanın imzatoplama kampaniyası başa çatıb, lakin o, sənədlərini "MSK"ya verməyə tələsmir: "Babayan Nikol Paşinyanın Qarabağa səfərini gözləyir. Yalnız bu səfərdən sonra o, namizədliyini irəli sürüb-sürməmək haqda qərar verəcək". Elə bu fonda da separatçı rejim daxilində siyasi qarşıdurma özünün zirvə nöqtəsinə çatmaqdadır. Ermənistanı narahat edən məqam Azərbaycanın, bu qarışıqlıqdan istifadə edərək, hərbi əməliyyatlara başlaya biləcəyi ehtimalıdır.

Erməni şərhçi Aram Amatuni də iddia edir ki, Bakı Qarabağda yaranmış vəziyyətdən asanlıqla istifadə edə bilər. O hesab edir ki, hətta bu zaman İrəvandakı iqtidar heç də Qarabağdakı separatçı rejimin yardımına tələsməyəcək. Bunun bir səbəbi qismində Paşinyanın indiki separatçı rejimə qarşı tutduğu münasibət göstərilirsə, digər səbəb qismində Ermənistandan Qarabağa gedən yolun ötən ildən Azərbaycanın nəzarətində olması göstərilir.

Xatırladaq ki, ötən ilin may ayı ərzində Naxçıvanın 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək, dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan ordusunun nəzarəti altına keçib. Naxçıvandakı Əlahiddə Ümumqoşun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələnib. Dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyi də ordumuzun nəzarətindədir və bunun ən böyük strateji əhəmiyyəti İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna ordumuzun nəzarət etməsinə imkan verməsidir. Həyata keçirilən əməliyyat nəticəsində paytaxt İrəvanı Ermənistanın cənubu və eləcə də işğal altındakı Qarabağ ərazisi ilə birləşdirən əsas magistral yolun mühüm bir hissəsinin Əlahiddə Ümumqoşun Ordu bölmələrinin bir neçə istiqamətdə tam vizual nəzarəti altına keçməsi mühüm hərbi üstünlük deməkdir.

Xatırladaq ki, ərazinin etibarlı müdafiəsi, bölmələrin manevr qabiliyyətinin yüksəldilməsi və təminattexliyə məqsədilə 50 kilometrdən artıq yeni yol çəkilib, 60 kilometrdən artıq yararsız yollar isə bərpa edilib. Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün ətrafdakı hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub.

Qısa zamanda dayaq məntəqələrinin bir neçə kilometrlərlə önə çəkilməsi, strateji yüksəkliklərin ələ keçirilməsi, logistik təminatın təşkili erməni tərəfi üçün indi də şok effekti yaradır. Düşmənin illərdir möhkəmlənmiş əraziləri tərk etməyə məcbur edilməsi bir tərəfdən onun döyüş imkanlarını məhdudlaşdırıb, digər tərəfdən Ermənistandan Qarabağ gedən yolların ordumuz tərəfindən nəzarət altına alınmasına imkan verib. İndi Qarabağda mümkün döyüş əməliyyatları zamanı Ermənistandan separatçı rejimə yardım göstərilməsi müşkülə çevrilib. Düzdür, belə bir vaxtda erməni tərəfi açıqlama ilə çıxış etdi ki, Ermənistandan Dağlıq Qarabağa yeni yol çəkilir. Amma elə erməni mediasının yazdıqlarından belə bəlli olur ki, bütün bunlar əslində blefdir və ictimaiyyəti aldatmağa hesablanıb. Bu xüsusda "1in.am" portalı yazır: "Bu günlərdə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan "Azadlıq" radiosunun "Daxildən siyasət" verilişində bəyan edib ki, çox tezliklə Ermənistanla Dağlıq Qarabağı birləşdirən 150 kilometrlik yol inşa ediləcək. O belə deyib: "İlkin müzakirələrə əsasən, bu gün biz 150 kilometrlik yolun çəkilməsini planlaşdırırıq. Artıq qərar var. Cənub istiqamətində Qafandan Hadrutadək salınacaq yol müzakirə mərhələsindədir və mən ümid edirəm ki, ilin sonunadək bütün müzakirələrimizi ümumiləşdirəcəyik və bizim əlimizdə bu yolu necə inşa edəcəyimiz haqqında "yol xəritəsi" olacaq".

Yeri gəlmişkən, həmin müsahibəsində Təhlükəsizlik Şurasının katibi layihənin maliyyələşdirilməsi məsələsinin artıq həll edildiyini bəyan edərək, əminlik ifadə edib ki, yol çox qısa zamanda inşa ediləcək və 2020-ci ildə bitəcək. Armen Qriqoryan Ermənistanın hökumət sistemində həlledici post tutur və o konkret vaxt göstərirsə, onda həm bizim cəmiyyətimizdə, həm də beynəlxalq birlikdə şübhə olmamalıdır ki, söhbət artıq bütün zəruri komponentləri aydınlaşdırılaraq işlənib hazırlanmış layihələrdən gedir. Təsadüfi deyil ki, Təhlükəsizlik Şurasının katibinin müsahibəsi Ermənistanda böyük rezonansa səbəb olub və bunun səbəbləri aydındır. Ermənistanı Qarabağla birləşdirən yolun strateji əhəmiyyətindən danışmaq artıqdır. Eyni zamanda mübahisəsizdir ki, işlənib hazırlanmış Qafan-Hadrut yolu layihəsi Ermənistanla Qarabağ arasındakı strateji əlaqəni, həmçinin iqtisadi və hərbi-siyasi mənada buraxılış qabiliyyətini daha da gücləndirəcək.

Təbii, Ermənistanda həvəslə qarşılanan bir şey Azərbaycanda süngü ilə qarşılanır. Və təsadüfi deyil ki, Armen Qriqoryanın müsahibəsindən sonra Azərbaycan XİN-i kifayət qədər sərt bəyanatla çıxış edib. Diqqətçəkəndir ki, Qriqoryanın sensasiyalı müsahibəsindən sonra bizim yaxşı məlumatlı mənbələrimiz, yumşaq desək, bu bəyanatın etibarlılığını şübhə altına alıb. Əsaslandırmaları çox müxtəlif olub. Birincisi Qriqoryan, həlledici post tutmasına baxmayaraq, hökumət düşərgəsində elə bir fiqur deyil ki, belə strateji əhəmiyyətli bir layihəni ictimailəşdirmək hüququ olsun. Adətən, strateji əhəmiyyətli qərarlar haqqında məlumatı cəmiyyət baş nazir Nikol Paşinyandan öyrənir. İkincisi, bu gün Ermənistan iqtisadiyyatı, büdcəsi belə bir layihəni reallaşdırmaq imkanına sahib deyil və hazırlıq işləri görülmədən, məsələn, "Ayastan" ümumerməni fondunun köməyilə bu layihə üçün ianə toplanması təşkil edilmədən belə bir layihəyə girişmək risqli olardı. Bu planda, Qriqoryanın ümumiyyətlə vəziyyətdən xəbəri yoxdur.

Nəhayət, bizim mənbəmizin informasiyasına görə, nəzərdə tutulan Qafan-Hadrut yolu layihəsi reallaşdırılma ehtimalı böyük, ancaq hələ müzakirə mərhələsində olan ideyadır. Və Armen Qriqoryanın dediyinin əksinə, bu layihə ilə bağlı siyasi qərar yoxdur. Beləliklə biz, demək olar əminik ki, Qriqoryanın bəyanatı avantürizmin nəticəsidir. Ancaq müəyyən şəraiti nəzərə alaraq, biz bu mövzuya, ən azı indiki halda, toxunmamağa qərar vermişdik. Lakin artıq bu barədə danışmamaq mənasızdır, çünki nüfuzlu rus saytlarından biri Qriqoryanın bəyanatının blef olduğunu açıqlayıb və bu informasiya digər xəbər resursları tərəfindən də yayılıb. Armen Qriqoryan, istər-istəməz, reallaşma perspektivi olmayan, - istənilən halda, onun göstərdiyi müddətdə, - bəyanatla çıxış edib və bu, Nikol Paşinyanın və onun hökumətinin nüfuzuna geri dönüşü olmayan zərbə olacaq. Ümumiyyətlə, siyasi blef Serj Sarkisyana xas olan əlamət idi. Məsələn, üçüncü prezident öz idarəçiliyinin müxtəlif vaxtlarında Ermənistanı İranla birləşdirəcək dəmir yolunun və ya yeni AES-in tikintisinə başlamağa söz vermişdi və faktiki, cəmiyyəti aldatdı. Legitimliyinin mənbəyi ictimai etimad olan inqilabi hakimiyyətlər belə davranışa yol verə bilməzlər. Biz dərindən əminik ki, Armen Qriqoryanın bəyanatından Nikol Paşinyanın xəbəri olmayıb.

Biz eyni zamanda əmin olmaq istəyirik ki, Qriqoyan öz komandasına qarşı siyasi sui-qəsdə qarışmayıb və sadəcə şok ifadələr işlətməklə özünü göstərməyə çalışıb. Qriqoryan, bizim təəssüflə yazdığımız kimi, Təhlükəsizlik Şurasının katibi vəzifəsində heç nəyi ilə fərqlənmir. Belə ki, yüksək çinli bu məmurun faydalılıq əmsalı çox aşağıdır. Doğrusu, Qriqoryanın əhəmiyyətsiz "kikslər"inə (bilyard oyununda kiylə yanlış zərbə) indiyədək diqqət edilməyib, ancaq onun sonuncu bəyanatı rüsvayçılıqdır.

Belə yüksək statusu olan məmur məsuliyyətsiz bəyanatlarla çıxış edə bilməz. Bu durumdan ən yaxşı çıxış yolu Armen Qriqoryanın istefası ola bilər. Əks halda bu, qaçılmaz olaraq onun işdən səs-küylü uzaqlaşdırılmasına gətirib çıxaracaq. Çünki hökumət özünü cəmiyyətin gözündə dəyərsizləşdirərək və xarici tərəfdaşının etimadını itirərək, Qriqoryanın məsuliyyətsiz bəyanatının nəticələrini qəbul edə bilməz". Bütün bunlar bir daha təsdiq edir ki, Ermənistan Qarabağ məsələsində zəif mövqedədir və mümkün hərbi əməliyyatlar zamanı da separatçı rejimə hansısa formada yardım edə bilməz.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Sənayemizin qeyri-neft sektoru rekord addımlarla irəliləyir. Bunu Prezident İlham Əliyev sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə deyib. Dövlət başçısı bu ilin altı ayında iqtisadiyyatın, qeyri-neft sektorunun, qeyri-neft sənayesinin və kənd təsərrüfatının artdığını vurğulayıb:**



# Qeyri-neft sektorumuzda davamlı artımın insan yaşayışına birbaşa və dolayı təsirləri...

## *Ruslan Atakişiyev: "Sifarişlər artır və nəticədə daha çox vətəndaş bundan faydalanır"*

"İqtisadiyyatımız bu ilin altı ayında 2,4 faiz, qeyri-neft sektorumuz 3,2 faiz artmışdır. Ən sevindirici göstərici qeyri-neft sənayesindədir. Burada artım 15,7 faizdir. Bu onu göstərir ki, son illərdə sənayeləşmə siyasətimiz gözəl nəticələr verir. Sənayemizin qeyri-neft sektoru rekord addımlarla irəliləyir. Eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı üçün lazımi addımlar atılır. Beləliklə, altı ayda qeyri-neft sənayemizin 15,7 faiz artımı, əlbəttə ki, çox sevindirici haldır".

O da məlum olub ki, ticarət dövriyyəsi 20 faizdən çox artıb. Qeyri-neft ixracı 15 faiz artıb. Altı ayda ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulduğunu, bunun böyük hissəsinin qeyri-neft sektorunun payına düşdüyünü deyən Prezident İlham Əliyev ilin əvvəlindən böyük sosial paketin təsdiqləndiyini və əhalinin rifahının, yaşayış səviyyəsinin daim diqqət mərkəzində saxlandığını bildirib.

Bütün bu deyilənlərlə yanaşı, qeyri-neft sektorunda istehsalın, ixracın artması Azərbaycan əhalisinin rifahına birbaşa və dolayı necə təsir göstərir?

Sözügedən məsələyə aydınlıq gətirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyev bununla bağlı bir sıra məqamlara toxundu: "İstehsal və ixrac artdıqca ölkə ehtiyatlarının həcmi artır. Təsadüfi deyil ki, bu gün valyuta ehtiyatlarımız 49 milyard dollardır. İxrac artdıqca ölkəyə daxil olan xarici valyutanın həcmi yüksəlir. Bu, birinci növbədə, müəssisələrdə çalışan işçilərin rifah halına müsbət təsir göstərir. Hər bir işçi 3-4 nəfərli ailəyə rəhbərlik edir. Bu da çox sayda insanın həmin gəlirdən pay almasına gətirib çıxarır. Ümumiyyətlə, istehsal prosesində gəlirlərin bölgüsü və yenidən bölgüsü prosesinə baxsaq görərik ki, bu kimi artımlar cəmiyyətin rifah halına müsbət təsir edir. Sifarişlər artır və nəticədə daha çox vətəndaş bundan faydalanır.

*"İxrac artdıqca vergi, gömrük daxilolmaları artır və bu zaman sosial ödənişlər yüksəlir"*

Dolayı təsirlərdən biri budur. Digər tərəfdən, ixrac artdıqca vergi, gömrük daxilolmaları artır və bu zaman sosial ödənişlər yüksəlir. Yəni dövlətdən maliyyələşən büdcə təşkilatları, sosial müavinət alanlar faydalanır. Bu kateqoriyadan olan şəxslərə edilən ödənişlər artır.

**Ölkədə aparılan islahatlar ona hesablanıb ki, qeyri-neft sektoru daha da inkişaf etsin. Neft sektorunda hansısa azalma olanda bunu kompensasiya etmək mümkün olsun. Hesab edirəm ki, yavaş-yavaş biz buna nail olacağıq".**

***Vidadi ORDAHALLI***

---

**"Müasir yanaşma, kənd təsərrüfatının elmi əsaslarla inkişafı məhsuldarlığı böyük dərəcədə artırır və artıracaq". Bunu Prezident İlham Əliyev iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı müşavirədə deyib.**



# Azərbaycanın kənd təsərrüfatında elmi yanaşma metodu özünü hansı formalarda göstərir...

## *Fuad İbrahimov: "Bunun təzahürləri bir neçə formada özünü göstərir"*

Prezident bildirib ki, müxtəlif istiqamətli addımlar kənd təsərrüfatında canlanmaya gətirib çıxarıb: "Kənd təsərrüfatında da bu il rekord göstərici əldə edilib. Qeyd etdiyim kimi, bu, aparılan islahatlar nəticəsində mümkün olub. Əlbəttə ki, dövlət dəstəyi, hər zaman olduğu kimi, bu il də göstərilir, bundan sonra da göstəriləcək. Bu istiqamətdə atılan addımlar artıq real nəticələr verir və kənd təsərrüfatı uğurla inkişaf edir. Əsasən bitkiçilik sahəsində, heyvandarlıqda artım təxminən üç faizə yaxındır. Hesab edirəm, bu sahəyə daha da böyük diqqət göstərilməlidir ki, heyvandarlıq da əhəmiyyətli dərəcədə artsın. Məndə olan məlumata görə, taxıl istehsalı 40 faiz artıb. Məhsuldarlıq da kifayət qədər yüksəkdir. Əvvəlki illərlə müqayisədə indi orta məhsuldarlıq 30 sentnerdən çoxdur. Ancaq elə təsərrüfatlar var ki, orada məhsuldarlıq 60 sentnerdir və ondan da çoxdur. Yəni bu onu göstərir ki, müasir yanaşma, kənd təsərrüfatının elmi əsaslarla inkişafı məhsuldarlığı böyük dərəcədə artırır və artıracaq".

Dövlət başçısı onu da qeyd edib ki, digər məhsulların istehsalı da artıb: "Beləliklə, bostan məhsulları təxminən 40 faiz, meyvə 20 faizdən çox, barama 25 faiz, tərəvəz 14 faiz. Yəni ixracımız da artır və əlbəttə ki, növbəti illərdə biz bu istiqamətdə öz siyasətimizi apararaq özümüzü daha da böyük nəticələrə çatdıracağıq".

O da məlumdur ki, son illər Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə bağlı bir sıra kompleks işlər görülür. Məqsəd həm daxili tələbatı yerli istehsal hesabına ödəmək, həm də ixracı artırmaqdır. Bütün bu deyilənlərin fonunda, son dövrlər kənd təsərrüfatında da elmi yanaşmanın hansı təzahürləri özünü göstərir?

Sözügedən məsələyə aydınlıq gətirən iqtisadçı-ekspert Fuad İbrahimov bununla bağlı bir sıra məqamlara toxundu: "Əvvəla kənd təsərrüfatı ilə yanaşı, istənilən sahədə elmi yanaşmaya üstünlük verilməsi effektiv nəticə verir. Çünki kənd təsərrüfatının elmi əsaslarla inkişaf etdirilməsi daha səmərəli nəticələrin əldə olunmasına gətirib çıxarır. Elmi yanaşma olmayanda, o zaman bu sahədə əldə olunan nəticələr aşağı olur. Bu nəinki kənd təsərrüfatına, ümumiyyətlə, makroiqtisadiyyata aiddir. Kənd təsərrüfatı məhsullarının yetişdirilməsində, istehsalında sovet dönəmində Azərbaycanın yetərincə təcrübəsi olub. Müstəqilliyin ilk illərində bu sahədə bir sıra problemlər yarandı. Bu gün ölkə rəhbərliyinin bu məsələyə xüsusi diqqət ayırması onu göstərir ki, Azərbaycanda aqrar məhsulların istehsalı artıq elmi yanaşmaya əsaslanır. Bunun təzahürləri bir neçə formada özünü göstərir. Məsələ ondadır ki, ölkədə aqroparkların sayı artırılır. Hazırda iyirmi iki aqropark faktiki fəaliyyətdədir. Bu ilin sonuna qədər 11 aqroparkın fəaliyyətə başlaması gözlənir. Bununla belə, ölkəyə cins heyvanlar gətirilir. Daha məhsuldar bitki sortları gətirilir ki, bu da məhsuldarlığın həcminin artmasına öz müsbət təsirini göstərir. Məhsuldar barama sortları ölkəyə gətirilir.

*"Elmi yanaşmanın nəticəsidir ki, bostan, tərəvəz və digər məhsulların istehsal həcmi ilbəil artır"*

Elmi yanaşmanın nəticəsidir ki, bostan, tərəvəz və digər məhsulların istehsal həcmi ilbəil artır. Bəzən görürsən ki, kimlərsə bu məsələyə başdansovdu yanaşır. Belə hallar da var. Məsələn, bu günlərdə Rusiyaya ixrac olunan pomidor sərhəddə saxlandı. Məlum oldu ki, sözügedən məhsulun tərkibində qida üçün yararsız maddə var. Elmi yanaşma Azərbaycanda daha çox məhsuldarlıqda özünü göstərir. Elə etməliyik ki, bu, məhsulun keyfiyyətinə də öz müsbət təsirini göstərsin".

***Vidadi ORDAHALLI***

# Azərbaycandan dünya dövlətləri üçün nümunə - söhbət xarici borcdan gedir

**Bu gün dünya iqtisadiyyatı üçün ən problemli məsələlərdən biri də xarici borc sindromu ilə bağlıdır. Hazırda dünya ölkələrinin böyük əksəriyyəti bu problemdən getdikcə daha çox əziyyət çəkməyə başlayır. Hətta iş o yerə çatıb ki, xarici borc məsələsi inkişaf etmiş ölkələri, o cümlədən ABŞ kimi nəhəng iqtisadiyyatları da silkələyir.**

Beynəlxalq Valyuta Fondu da bu istiqamətdə heç də ürəkaçan bir vəziyyətin olmadığını bildirir.

Qurum qeyd edir ki, xarici borc dünya iqtisadiyyatının inkişafına əsas təhlükədir. Bu məsələdə inkişaf etmiş ölkələrlə bağlı vəziyyət daha ağırdır. Məsələn, Avropa ölkələrinin böyük əksəriyyətində dövlət borcu ümumi daxili məhsulun 100 faizlik həddini keçib. ABŞ-da da eyni vəziyyət müşahidə olunur. Halbuki, beynəlxalq normalara əsasən, dövlət borcları ÜDM-in 60%-dən artıq ola bilməz. Bu həddin aşması, həm ölkələrin daxili, həmdə beynəlxalq maliyyə sisteminə neqativ təsir göstərir. Bir məqamı ad qeyd edək ki, dövlət borcu mahiyyət etibarilə aktiv və passiv kateqoriyalara bölünür. Aktiv dövlət borcları büdcə vasitəsilə dövlətin konkret sosial-iqtisadi proqramlarının reallaşdırılmasına, infrastruktur layihələrinin maliyyələşdirilməsinə yönəldilir. Passiv dövlət borcları isə büdcədən maliyyələşən cari xərclərin bağlanmasına sərf edilir. Real vəziyyət göstərir ki, Azərbaycan hökumətinin götürdüyü borclar tamamilə aktiv borclar kateqoriyasına aiddir. Bunun belə olduğunu bilmək üçün büdcədən maliyyələşən sosial proqramlara və infrastruktur layihələrinə nəzər salmaq kifayətdir. Aktiv borcların sərf edildiyi layihələr isə onların qaytarılmasında əsas mənbə olur. Bu səbəbdən hökumətin borclanma strategiyası düzgün sayılır.



Digər tərəfdən, ölkəmizdə həm də borcun miqdarının azaldılması xüsusi diqqət mərkəzində yer alır.

Bunu Prezident İlham Əliyev iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı müşavirədə xüsusi olaraq vurğulayıb. Borcun azalması fonunda dövlət başçısı bildirib: "Valyuta ehtiyatlarımız artır. Valyuta ehtiyatlarımız rekord həddə çatıb - 49 milyard dollar səviyyəsindədir. Bu bizim böyük sərvətimizdir, böyük uğurumuzdur. Bu ilin altı ayında valyuta ehtiyatlarımız 4 milyard dollar artıb. Biz bu vəsaitdən çox qənaətlə istifadə edirik. Məhz buna görə hətta böhranlı illərdə, neftin qiyməti aşağı olan illərdə biz öz valyuta resurslarımızı qorumuşuq və artırmışıq. Məqsəd də məhz belə idi ki, biz ildən-ilə öz valyuta ehtiyatlarımızı artıraq və bununla paralel olaraq xarici dövlət borcumuzu da kifayət qədər əhəmiyyətli dərəcədə aşağı sala bilmişik. Bir il ərzində xarici borcumuz 4 faiz aşağı düşüb və təxminən 19 faiz səviyyəsindədir. Bu, dünya miqyasında ən gözəl göstəricilərdən biri hesab olunur. Çünki bəzi ölkələrdə dövlət xarici borcu ümumi daxili məhsuldan da artıq olur, yaxud da ki, ona bərabərdir. Bizdə isə bu 19 faizdir. Biz bu sahədə bundan sonra da çox diqqətli olmalıyıq. Ancaq strateji əhəmiyyət daşıyan layihələrə kreditlərin alınması mümkündür. Çünki bizim öz daxili imkanlarımız var və biz bu imkanlardan istifadə etməliyik".

Onu da xatırladaq ki, bu il üçün nəzərdə tutulan büdcəyə görə, dövlət borclarının qaytarılması üçün 2 milyard 334,8 milyon manat ayrılıb. Bu, 2018-ci illə müqayisədə 72 milyon manat, yaxud 3,2% çoxdur. Görülən tədbirlər nəticəsində qarşıdakı dövrdə xarici dövlət borcunun səviyyəsinin ümumdaxili məhsula olan nisbəti daha da endiriləcək. Burada ən önəmli faktorlardan biri də budur ki, Azərbaycan xaricdən kredit alışını, demək olar ki, dayandırıb. Belə vəziyyətdə xarici borc məsələsində Azərbaycan daha uğurlu manevr etmək imkanı qazanır. Digər tərəfdən xatırladaq ki, bir müddət əvvəl dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" təsdiq edilib. Burada da əsas məqsədlərdən biri xarici borcun tədricən azaldılmasıdır. Belə ki, 2025-ci ildə Azərbaycanda xarici dövlət borcunun məbləğinin 2018-ci illə müqayisədə 9,7 milyard dollardan 6,5 milyard dollaradək azalması nəzərdə tutulur. Bu, ÜDM-də borc səviyyəsinin indiki 19 faizdən 12 faizədək azalması deməkdir. Hazırda 49 milyard dollar təşkil edən valyuta ehtiyatları isə borc məsələsində Azərbaycana yeni manevr imkanları qazandırır. Digər tərəfdən, dövlət zəmanəti altında götürülmüş xarici kreditlər iqtisadiyyatın real sektoruna yönəldilib ki, bu da son nəticədə Azərbaycan iqtisadiyyatının artım templərinin yüksəlməsinə səbəb olacaq. Ekspertlər bildirir ki, əslində normal borclanma bütün hallarda məqbul sayıla bilər. Lakin onun neqativ tərəflərinin də mümkünlüyünü hesablamağı bacarmaq lazımdır. Ortada böyük həcmdə uğursuz xarici borclanmanın yaratdığı problemlərlə üzüzə qalmış Yunanıstan kimi ölkələrin də acı təcrübəsi var. Ona görə də xarici borcu yalnız uğurlu iqtisadi islahatlar keçirildiyi bir şəraitdə yeni dəyər yaradan layihələrə yönəltmək ən düzgün seçim ola bilər. Azərbaycan hökumətinin də xarici borclanma üzrə strategiyasının kökündə məhz belə yanaşma dayanır. Bu gün Azərbaycan yaxın illərdə na yüz milyard dollardan artıq mənfəət gətirə biləcək "Cənub Qaz Dəhlizi" kimi layihələrin maliyyələşdirilməsinə xarici kreditləri cəlb edir. Heç şübhə yoxdur ki, beynəlxalq maliyyə qurumlarından çox sərfəli şərtlərlə alınan bu kreditlər özünü tezliklə tam doğruldacaq. Məhz bu səbəbdən Azərbaycana indi bütün beynəlxalq maliyyə qurumları böyük məmnuniyyətlə borc verməyə hazır olduqlarını bildirir. Amma Azərbaycan özü artıq bundan imtina edir.

***Tahir TAĞIYEV***

**Havalar isindikcə dondurmaya da tələbat artır. İstənilən mağazada müxtəlif çeşidlərdə, müxtəlif ölkə istehsalı olan dondurmalar satılır. Hazırda ölkə bazarında daha çox yerli, Türkiyə və Rusiya istehsalı olan dondurmalardır. Əlbəttə, xaricdən gətirilən dondurmalar yerli istehsala nisbətən 2 dəfəyə qədər baha qiymətə satılır.**

# Sulutəpədə "Camal LTD" sexlərindən "Araz" marketə - buz kimi donan "marojna" görmüsünüzmü, adı da "Plombir"...




***"Camal LTD" - Xuraman Abdullayeva:*** *"...satış nöqtələrində bəzən soyuducu tam işlək vəziyyətdə olmadığı üçün, alınan məhsul yenidən buzlağa qoyulanda əvvəlki effektini itirir"*

***Eyyub Hüseynov:*** *"Əmtəə bazarında elə dondurmalar var ki, yararsız hala düşdükdən sonra düzəldilərək açıq halda satılır"*

Bəs ləzzətlə yediyimiz dondurmaların hamısı keyfiyyət tələblərinə cavab verirmi? Sözsüz ki, yox. Dəfələrlə satışda vaxtı keçmiş, keyfiyyəti aşağı olan dondurmalara rast gəlirik, hansı ki, insan orqanizmində fəsadlara, zəhərlənmələrə yol açır. Bəzi dondurmaların üzərində istehsal olunduğu məkan və tərkibi belə qeyd edilmir. İddialara görə, həmin dondurmalar zirzəmilərdə, antisanitariya şəraitində hazırlanan məhsullardır.

Qeyd edək ki, satışda xaricdən gətirilən dondurmalarla yanaşı, yerli istehsal da üstünlük təşkil edir. Ölkənin istənilən ərazisində dondurma sexləri fəaliyyət göstərirlər. Həmin sexlərdə hazırlanan dondurmaların tərkibi isə heç də standartlara cavab vermir. Məlumdur ki, dondurmanın hazırlanması üçün süd, qatqısız yağdan istifadə olunmalıdır. Ancaq bu gün satışda olan dondurmaların əksəriyyətinin tərkibi belədir: süd yağı - 10-16 faiz, yağsız süd qatı kütləsi - 9-12 faiz, əlavə qatqılar - 14-19 faiz, stabilizatorlar və emulsifatorlar - 0.2-0.6 faiz, su - 55-64 faiz, müxtəlif boya maddələri.

Təbii ki, qeyd olunan məhsulların bir çoxu insan bədəni üçün yaddır və bu cür maddələrin davamlı olaraq qəbulu xərçəng başda olmaqla, bir çox təhlükəli xəstəliyə gətirib çıxarır.

Standarta cavab verməyən, süd əvəzinə dondurmaya su verən şirkətlər yetərincədir. O şirkətlərdən biri də "Camal LTD"dir. Bu şirkət Bakı şəhəri, Sulutəpə qəsəbəsi, R.Allahverdiyev küçəsində fəaliyyət göstərir. Son zamanlar "Camal LTD" şirkətinin istehsal etdiyi dondurmalarla bağlı redaksiyamıza çoxlu sayda şikayət daxil olur. Şikayətçilər bildirirlər ki, onlar marketdən 15 faizlik "Plambir" dondurma alıb, sonra onun təkrar donması üçün buzluğa qoyurlar: "Buzluqdan dondurma çıxarılan zaman dondurmadan əsər-əlamət qalmır. Dondurma sanki buza dönür və onu yemək qeyri-mümkün olur. Əriməsini gözləyəndə isə tamamilə suya çevrilir. Belə ki, dondurmanın üzərində yazılan 15 faiz yağlılıq sadəcə söz üçün yazılıb. Çünki yağlı dondurma heç vaxt buz olmaz".

Qeyd edək ki, bu halla əksər istehlakçı rastlaşır. Dondurma süd ilə deyil, su ilə hazırlandığı üçün, adıçəkilən sərinləşdirici qida buzluğa qoyulan zaman tamamilə buza çevrilir.

Məsələni dəqiqləşdirmək üçün "Camal LTD"şirkəti ilə əlaqə saxladıq. Şirkətin laboratoriya şöbəsinin rəhbəri Xuraman Abdullayeva "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, şirkət tərəfindən istehsal olunan dondurmaların tərkibi kərə yağı, qatılaşdırılmış süd və şəkərdir: "Məlumat üçün bildirim ki, Prezidentin göstərişi ilə Biləsuvar rayonunda kərə yağı istehsal edən müəssisə açılıb. Biz də həmin kərə yağından istifadə edirik. Dondurmalar standarta uyğun formada istehsal olunur. Sadəcə, satış nöqtələrində bəzən soyuducunu tam işlək vəziyyətə gətirmirlər. Bu səbəbdən də dondurma əriyir, o zaman istehlakçı məcbur olub buzluğa qoymalı olur. Belə olan halda, həmin dondurma öz formasını itirir. Məlumat üçün bildirim ki, dondurmaların tərkibi 100 faiz yağ olmur, 60 faizi sudan ibarətdir. Hərarətin düşməsi səbəbindən dondurma əridiyi üçün, o yenidən buzluğa qoyulur. Buzluqdan çıxarıldıqdan sonra həmin dondurma həm öz formasını itirir, həm də buza çevrilir".

Mütəxəssislər qeyd edirlər ki, keyfiyyətli dondurmanın tərkibində mütləq süd, şəkər, kərə yağı, yumurta olmalıdır. Həmçinin, dad və ətirverici maddələr, stabilləşdiricilər əlavə olunur. Əgər dondurmanı dilin üstünə qoyduqda acı dad verərsə, deməli, tərkibinə kərə deyil, marqarin, bitki yağı qatılıb. Dondurma süd məhsulu olduğu üçün, onun tərkibinə ancaq kərə yağı vurulmalıdır. Yalnız bu halda dondurmanı dilin üstünə qoyduqda təzə qaymaq dadı verir, yəni yararlıdır.

Ekspertlər onu da vurğulayırlar ki, dondurma alarkən daha bir məqama diqqət etmək lazımdır - onun kağızına. Əgər dondurmanın kağızı əzikdirsə, mütləq onu almaqdan çəkinmək lazımdır. Bu onu göstərir ki, dondurma bir dəfə əriyərək, yenidən dondurulub və bu da insan orqanizmi üçün təhlükəlidir və çirklənmiş məhsul hesab olunur.

Azad İstehlakçılar Birliyinin (AİB) rəhbəri Eyyub Hüseynov qeyd etdi ki, bu sahədə ciddi problemlər var: "Biz Azad İstehlakçılar Birliyi olaraq, 2011-ci ildən ölkədə istehsal edilən cəmi bir məhsula qida təhlükəsizliyi ilə bağlı xüsusi nişan vermişik. Həmin dondurmalarla bağlı açıq monitorinqlər aparılıb. Adını reklam olmasın deyə, səsləndirmirəm. Digər dondurmalarla bağlı monitorinqlər aparılmayıb. Onu da deyim ki, məhsulun üzərində həm istehsal, həm də son tarix qeyd edilməlidir. Bu, "Yeyinti haqqında" Qanunla da tənzimlənir. Qanuna bunun daxil edilməsi üçün çox çalışmışıq. Avropada əsasən son tarixi qeyd edirlər. Görünür, Azərbaycan da onlardan nümunə götürür. Ancaq biz buna imkan verməyəcəyik. Hər iki tarix qeyd edilməlidir. Çünki istehlakçı ola bilər ki, yeni mal almaq istəsin. Bütün bunlar istehlakçı hüquqlarının pozulmasıdır. Əgər məhsulun üzərində hər iki tarix yoxdursa, istehlakçı bu barədə Qida Təhlükəsizliyi Agentliyinə məlumat versin. Bu, birbaşa olaraq, qanunvericiliyin pozulmasıdır. Ölkədə dondurma bazarında bu gün 30-dan çox istehsalçı var. Azad bazar şəraitinin onlara yaratdığı imkandan sui-istifadə edilir. İstehlakçı dondurmanın əzik olduğunu görürsə, onu qəti şəkildə almasın. Əzilmiş dondurma o deməkdir ki, nə zamandan temperatura məruz qalıb və çirklənib. Bu cür süd məhsulu artıq təhlükəli sayılır. Dondurmanın qabığı düz olmalıdır. Əriyib, yenidən dondurulursa, onu yemək olmaz. Belə hallar daha çox köhnə dondurmalarda müşahidə olunur. Açıq şəkildə satılan dondurmaları alarkən də diqqətli olmaq lazımdır. Əmtəə bazarında elə dondurmalar da var ki, yararsız hala düşdükdən sonra düzəldilərək açıq halda satılır. Bu cür dondurmaları yeyən şəxslər ciddi mədə-bağırsaq xəstəliklərinə tutula bilərlər. Çünki həmin dondurmaların tərkibinə çoxlu sayda müxtəlif kimyəvi qatqılar qatılır".

Həmsöhbətimiz onu da vurğuladı ki, dondurmanın yararlılıq vaxtını illərlə qoyurlar, tərkibini üstünə yazmırlar və sairə. Bir sözlə, dondurma sahəsində çox böyük problemlər yaşanır. Bu məhsulu uzun müddət saxlamaq üçün tərkibinə arzuolunmaz maddələr qarışdırılır. Bunlar da, birmənalı şəkildə, onun üzərində yazılmır. Çünki ölkədə istehlakçı üçün məlumat standartı yoxdur. Xaricdən gətirilən dondurmalara gəlincə isə, onların yararlılıq müddətinə və saxlanma şəraitinə fikir versək, arzuolunmazdır.

***Günel CƏLİLOVA***

# Qarayaradan necə qorunmaq olar?

**Məlum olduğu kimi, Sabirabadda iki nəfər qarayara xəstəliyinə yoluxub. Xəstəliyə yoluxanlardan biri ölüb, digərinin vəziyyəti isə ağırdır. Qarayara xəstəliyi diaqnozu ilə paytaxta gətirilərək, Kliniki Tibbi Mərkəzə yerləşdirilməsindən sonra xəstələrdən biri - 60 yaşlı kişi dünyasını dəyişib.**

Məlumat üçün bildirək ki, qarayaranın elmi dildə adı Sibir xorası kimi çəkilir. 1945-ci ildə İranda bu xəstəlikdən 1 milyon qoyun, ABŞ-da isə 1944-1994-cü illərdə 224 insan ölümü qeydə alınıb. Ən böyük epidemiya isə 1979-1985-ci illərdə Zimbabvedə baş verib. Bu epidemiya 10.000-dən artıq insanın həyatına son qoyub.

Ekspertlər qeyd edirlər ki, qarayara insanlarda ağciyər və bağırsaq formasında gedir və həmişə ölümlə nəticələnir. Xəstəliyin ən çox yayılmış forması dəri yarasıdır. Bu, 95 faiz təşkil edir.

Qeyd etdiyimiz kimi, adı qorxulu kabus kimi çəkilən qarayara xəstəliyi ölkəmizdə də qeydə alınıb. Maraqlıdır, adıçəkilən xəstəlik nədir, necə əmələ gəlir, yayılma ehtimalı hansı formadadır, insanlara necə keçir və bu xəstəlikdən necə qorunmaq olar?

Bununla bağlı Dövlət Baytarlıq Xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, qarayara bütün növ kənd təsərrüfatı heyvanlarının, vəhşi heyvanların iti gedişli yoluxucu xəstəliyidir: "Xəstəlik septisemiya, müxtəlif böyüklükdə karbunkulların əmələ gəlməsi və ağır intoksikasiya ilə səciyyələnir. Törədicinin mənbəyi əsasən xəstə heyvanlar və bu xəstəlikdən ölmüş heyvanların cəsədlərinin basdırıldığı torpaq hesab olunur. Xəstəlik heyvandan insana keçir, lakin insandan insana keçmir. Bu xəstəliyə yoluxma həssaslığı azalan göstəricilərlə qoyun və mallar, atlar, qaramal, dəvə və keçilər, donuz, it və pişiklərdir. Quşlardan isə dəvəquşu bu xəstəliyə yoluxur. Yoluxma mənbəyi çox hallarda törədici ilə kontaminasiya olunmuş torpaqdır. Epizootiya zamanı xəstəlik əsas etibarilə transmissiv yolla yayılır. Xəstəliyin şiddətlənməsi çox vaxt otlaq mövsümünün ikinci yarısında baş verir".




***Dövlət Baytarlıq Xidməti:** "Xəstəlik heyvandan insana keçir, lakin insandan insana keçmir"*

***Qida Təhlükəsizliyi Agentliyi:** "Araşdırma qrupu tərəfindən xəstəlik törədicisinin mənbəyinin müəyyən olunması məqsədilə epidemioloji və epizootoloji araşdırmalara başlanıb"*

***Adil Qeybulla:** "Qarayara xəstəliyinin ölkəmizdə qeydə alınması baytarlıq sahəsinə bir həyəcan siqnalıdır"*

Qida Təhlükəsizliyi Agentliyi ölkədə qeydə alınan qarayara xəstəliyi ilə bağlı bildirdi ki, 5 iyul 2019-cu il tarixində Qida Təhlükəsizliyi Agentliyinə (AQTA) Səhiyyə Nazirliyinin Sabirabad Rayon Gigiyena və Epidemiologiya Mərkəzindən qarayara xəstəliyi ilə bağlı məlumat daxil olub: "Müraciət rayonun İ.İsgəndərov küçəsi 64 ünvanında yaşayan, 1961-ci il təvəllüdlü Heydərov Malik Alış oğlu və həmin küçədə bina 3, mənzil 23 ünvanında yaşayan, 1950-ci il təvəllüdlü Qəfərov Tofiq Heybət oğlundan olub. Sabirabad Rayon Mərkəzi Xəstəxanasının infeksiya şöbəsində hospitalizasiya olunması və qarayara xəstəliyinə şübhəsi əsasında hər iki şəxsdən müayinə materialları götürülərək İmişli Rayon Taun Əleyhinə Stansiyasına göndərilməsi və nəticələri ilə bağlı əlavə məlumat verilməsi haqqında agentliyə məktub daxil olub. Məlumat daxil olduqdan dərhal sonra agentliyin mütəxəssislərindən ibarət araşdırma qrupu yaradılıb və hadisənin baş verdiyi əraziyə ezam olunub. Araşdırma qrupu tərəfindən xəstəlik törədicisinin mənbəyinin müəyyən olunması məqsədilə epidemioloji və epizootoloji araşdırmalara başlanıb. Bu məqsədlə daxil olan informasiyalar təhlil olunaraq, anamnez məlumatlar toplanmış, xəstəliyə yoluxması ehtimal olunan şəxslərin şəxsi təsərrüfat sahələrində, heyvanların saxlandığı ərazidə kliniki müayinələr həyata keçirilib, şəxsi təsərrüfatlarda olan heyvanların peyvəndləmə işləri təhlil olunub və heyvanların xəstəliyə yoluxma ehtimalı öz təsdiqini tapmayıb. Agentlik əməkdaşları tərəfindən hadisənin baş verməsi ehtimal olunan mümkün səbəblər üzrə araşdırmaların əhatə dairəsi genişləndirilib və yoluxma ehtimalı olan şəxsin qardaşına məxsus heyvan kəsimi məntəqəsinə baxış keçirilib. Kəsim məntəqəsindən müvafiq nümunələr götürülərək aidiyyəti üzrə laboratoriyalara təqdim edilib. Aparılan araşdırmaların hazırkı mərhələsinə qədər həmin şəxslərin təmasda olduğu heyvanlarda və heyvandarlıq təsərrüfatında xəstəlik faktı aşkar olunmayıb. Hazırda Agentliyin mütəxəssisləri tərəfindən laborator müayinələr və epidemioloji araşdırmalar, ehtimal olunan xəstəliyin törədicisinin müəyyən edilməsi istiqamətində tədbirlər davam etdirilir. Araşdırmaların nəticələri məlum olduqdan sonra ictimaiyyətə geniş məlumat veriləcək".

Professor, həkim-ekspert Adil Qeybulla bildirdi ki, bu, təhlükəli infeksion xəstəlikdir: "O qədər təhlükəli infeksiyadır ki, hətta vəhşi heyvanlarda olduğu zaman belə onların ölümünə səbəb olur. Baş vermiş hadisə artıq baytarlıq sahəsinə bir həyəcan siqnalıdır. Çünki xəstəliyin yayılması ehtimalı ola bilər. Kənd təsərrüfatı və vəhşi heyvanların kütləvi şəkildə sıradan çıxmasının, insanların zərər görməsinin qarşısını almaq üçün bu hadisə lokallaşdırılmalıdır".

Ekspertin sözlərinə görə, qarayara xəstəliyi dərinin, limfa düyünlərinin, ağ ciyərlərin, bağırsaqların zədələnməsinə səbəb olur. Əksəriyyət zaman bu infeksiya letal nəticələrə gətirib çıxarır.

**A.Qeybulla onu da əlavə etdi ki, qarşıdan Qurban bayramı gəldiyi üçün, bu hadisə dərhal araşdırılmalıdır: "Bu hadisə təkrarlana bilər. İnfeksiyanın mənbəyi iribuynuzlu heyvanlardır. Kənardan gətirilən heyvanlarda da bu xəstəlik ola bilər. Ona görə də məsələ ciddi şəkildə araşdırılmalıdır. Tədbir görülməsə, yayıla bilər. Bu da xeyli insan və heyvan tələfatı ilə nəticələnə bilər".**

***Günel CƏLİLOVA***

# Azərbaycanda 80 yaşlı yeganə məşqçi: "Yarışa gedəndə deyirdilər ki, işimiz bitdi, koreyalılar gəldi..."



**- Ağsuda kimdən soruşsan, sənə məşq zalının yerini göstərəcək.**

Əslində elə soruşmağa da ehtiyac qalmadı. Sürücü "o kişini kim tanımır ki, Ağsunun yarısına güləşməyi o öyrədib" deyə bizi düz həmin küçəyə gətirdi.

…Bizi küçənin başında qarşılayır. Əynində də idman forması. Sonradan öyrəncəydik ki, rəsmi tədbir, toy-yas olmasa, ilin bütün günü bu forma onun əynindən çıxmır. Düz, 70 ildir ki, belədir. Yox, 70 yaşı yoxdur. Gələn il 80-ci on illiyə əlvida deyəcək, bu nurani kişi. Azərbaycana yüzlərlə güləşçi bəxş etmiş, ahıl yaşlarında taekvondonun, karatenin belə sirlərini öyrənib uşaqları idman zalına yığan Mübariz Məmmədov.

Desəm, böyük bir güləş zalıdır yanılaram. Amma biləndə ki, bu güləş zalına gələn uşaqlardan heç bir təmənna güdülmür, Mübariz müəllim onlarla heç bir təmənnasız məşğul olur, hətta elə uşaqlar var ki, onların idman formalarını, güləş trikolarını, karate dəstlərini belə öz cibinin puluyla alır, dünyanın olimpiya mərkəzlərinin ən möhtəşəm güləş zallarından böyük göründü bura.

***

1940-cı ildə Şamaxının Çalxan kəndində anadan olub. 7 il orda oxuyandan sonra Şamaxı şəhər 1 saylı orta məktəbdə davam etdirib təhsilini. El həmin orta məktəbdə də ilk dəfə güləş döşəyinə ayaq basıb. İlk müəllimi isə - yeri gəlmişkən, indi də sağdır -Xankişi müəllim olub.

Əslində pəhləvanlıq onların nəslində olub. Əmisi Ələkbərin inanılmaz gücü var imiş. Yük dolu arabanı çəkib aparırmış. Özü də ətrafındakılara deyərmiş ki, məni zoğal çubuğuyla vurun, ağrıtsın, onda mənə daha çox güc gəlir.

- Uşaq vaxtı da toyda-bayramda güləşəndə mənim gücümü hiss etmişdi, əmim. Kim kimə sonda qalib gələrdisə, ortaya düşüb deyərdi, hə, bildim yaxşı güləşirsən. İndi de görüm Mübarizlə güləşə bilərsən?

Bir neçə ildən sonra tale onu Bakıya aparıb çıxaracaqdı. Özü də hara? Hə, Bakı Dənizçilik Məktəbinin kursantı olacaqdı. Burda da güləşə ara verməyəcəkdi

- Çox ciddi nizam-intizam vardı həmin məktəbdə. Bir dəqiqə dərsdən yayınmaq, sərt cəzayla nəticələnərdi. Amma müəllimlərim də görürdülər ki, təsadüfən gəlib düşmüşəm bu məktəbə. Onlar da mənim üçün əsas işin güləş olduğunu çox gözəl anlayırdılar. Ona görə də rahat şəkildə məşqlərə getməyimə mane olmurdular.

Məşqləri isə gənc Mübariz "Dinamo" cəmiyyətində keçirmiş. Bir gün Bakı çempionatı keçirilir. Öz çəki dərəcəsində rəqiblərini bir-bir sıradan çıxaran Mübariz finala vəsiqə qazanır. Amma… Amma burda ona qarşı haqsızlıq edilir. Güləşi yarımçıq saxlayıb döşəyi tərk etmək istəyəndə…

- Döşəkdən çıxırdım ki, bir də gördüm dəmir kimi bir əl yapışdı məndən. Sərt şəkildə üzümə baxıb dedi ki, bundan sonra həmişəlik burda güləşəcəksən, "Dinamo"da. Susdum, heç nə demədim. Sonradan bildim ki, mənim güləşməyim onun çox xoşuna gəlibmiş.

Bəs həmin adam kim olsa yaxşıdır? Hə, Azərbaycan güləşinin əfsanəsi İbrahimpaşa Muxtarov.

Dosye:

İbrahimpaşa Muxtarov Azərbaycan sərbəst güləş ustası, dəfələrlə SSRİ çempionu olub. Sovet idmançıları üçün debüt olan 1952-ci il yay Olimpiya oyunlarında sərbəst güləş yarışlarında iştirak edib və 7-ci yeri tutub. 1949, 1951, 1952 və 1956-cı illərdə SSRİ çempionatlarında qalib, 1954 və 1955-ci illərdə gümüş medala sahib olan İbrahimpaşa, 1950-ci ildə bürünc medala layiq görülüb. SSRİ-nin əməkdar idman ustası və SSRİ əməkdar məşqçisi idi.

"Dinamo" cəmiyyətində məşqçi kimi bir çox güləş ustalarını SSRİ miqyasında yarışlara hazırlayıb. Dünya və Avropa çempionu və 1964-cü il yay Olimpiya oyunlarının bürünc mükafatçısı Aydın İbrahimovun məşqçisi olub.

Beləliklə, elə həmin yarışdaca Bakı çempionu olur. Və bu uğuru bir neçə dəfə təkrarlayır. Məhz mərhum İbrahimpaşa Muxtarovun xeyir-duasıyla. Mübariz müəllim deyir ki, sonradan ustadın qardaşı, tanınmış güləşçi Muxtar Dadaşovla da dostlaşır.

Amma güləşməyə tez ara verir gənc Mübariz. Deyir ailə vəziyyətinə görə, bir müddət güləşdən uzaq düşür.

Çox keçmir ki, bu dəfə məşqçiliyə başlayır. Amma Şamaxıda yox. Tale onu Ağsuya gətirib çıxarmışdı.

30 il Ağsudakı peşə məktəbində idman rəhbəri olur. Bu illər ərzində yüzlərlə güləşçi yetişdirir. Və günlərin bir günü SSRİ dağılır. Peşə məktəbləri də elə yarı-dağılmış vəziyyətə düşür. Amma Mübariz müəllim boş durmur. Bir gün formal da olsa fəaliyyət göstərən peşə məktəbinin direktorunun yanına girir.

- Yadımdan çıxmamış bir şeyi də deyim. Bir dəfə peşə məktəbi yanmışdı. Sənədlərim də kül olmuşdu. Təsəvvür edin, tələbələrimin bütün uğurları, onların diplomları, tərifnamələri, bir sözlə, mənə və güləşə aid nə vardısa, hamısını bir-bir tapıb üzünü çıxardıb yenidən topladım. Bax, hamısı burdadır. (Əliylə qalın-qalın qovluqları göstərir. S.S.) Hə, onu deyirdim axı, direktorla danışdım, peşə məktəbinin uçulub tökülməkdə olan yeməkxanasını təmir etdirib, idman zalı açıb güləş məşqləri keçməyə başladım. Təxminən 1993-cü il idi. İndi sənə maraqlı bir tarixçə danışım. Günlərin bir günü məşq keçirdim. Bir də gördüm qapının ağzında iki uşaq dayanıb, məşqə baxırlar. Dedilər, olar biz də məşqə baxaq? Buyurun, dedim. Məlum oldu ki, bu uşaqlar əslən ağsuludurlar, bir-iki aylıq tətilə gəliblər rayona. Özləri də Bakıda taekondoyla məşğuldurlar. İnanmazsınız, güləş məşqi dönüb oldu taekvondo. Uşaqlar həm güləşlə məşğul olurdular, həm taekvondo, həm də karateylə. Məni özüm o uşaqlara güləşin sirlərini öyrənirdim. Onlardan isə taekvondonun. Sonradan xeyli ədəbiyyat tapdım. Artıq bu idman növüylə ciddi məşğul olmağa başladım. Mənim oğlum var, Asif. Uşaq idi onda. 6-cı sinifdə oxuyurdu, taekvondonu elə mənimsəmişdi ki, 1 ildən sonra özü dərs keçirdi.

Taekvondo elə bir populyarlıq qazandı ki, Ağsuda, təsəvvür edin, 1994-cü ildə 4 idmançımız yeniyetmələr arasında respublika çempionu oldular. Mənim iki oğlum Dünya Taekvondo Federasiyasının məşqçi sertifikatını, "Qara kəmər"ini alıblar. Neçə-neçə idmançımız Azərbaycan çempionatının qızıl medalın qazandı. Çox güclü komandamız vardı. Bizi yarışa gedəndə, deyirdilər ki, işimiz bitdi, koreyalılar gəldi, bizə medal yoxdur.

Uşaqlar böyüdü, hərə bir yerə dağıldı, artıq həm taekvondo, həm də güləşlə məşğul olmağa başladım.

Amma indi taekvondo məşqlərinə ara verib. Deyir, 80-ə çatıb yaşım. Artıq taekvondo təmrinlərini yerinə yetirmək fiziki cəhətdən çətinləşib. "Güləş də bir az fərqlidir, ona görə məşqləri davam etdirirəm".

***

Mübariz müəllim yetirmələri ilə məşqə başlayır. Anar adlı yeniyetmə döşək üzərinə çıxıb müəlliminin müxtəlif tapşırıqlarını yerinə yetirir.

Mübariz müəllimdən soruşuram, bax, bu Anarın respublika çempionu olması üçün nələr gərəkdir?

Bir qədər susur ustad.

- İlk növbədə ürəyində Allah sevgisi olmalıdır. Allahı sevməsə, nə məni sevə bilər, nə güləşi. İkinci tərbiyə, ədəb-ərkan. Tərbiyəsi varsa, ucalacaq. Üçüncüsü, psixi rahatlıq. Onu da məşqçi hazırlamalıdır. Məşqçiyə qulaq asmalıdır. Rəqibinə ilk olaraq psixoloji tərəfdən qalib gəlməlidir. Yerdə qalanları isə texniki məsələlərdir. Müəyyən fəndlər və sairə.

Həmin idman zalının ömrü qısa olur. Nə qədər təmir etsələr də, divarları dözmür, uçub-dağılır.

Amma güləşə olan fanatik sevgisi onu rahat buraxmır. Düz evinin böyründə torpaq sahəsi alır. Deyir, uşaqlarım artıq böyümüşdü. İşləyirdilər.

- Qəpik-qəpik başladılar pul göndərməyə. Bir dəfə 1000 dənə daş aldım, bir dəfə 500 dənə. Yavaş-yavaş başladım tikməyə. Həmişə istəmişəm ki, mənim özümün idman zalım olsun. Şəxsi idman zalım. Allah bu arzumu gözümdə qoymadı. Balalarımın canı sağ olsun, atlarının arzusunu yerinə yetirdilər.

Bu zal artıq iki ildir fəaliyyətdədir. Adicə təqaüdlə dolanır Mübariz müəllim. Hərdən övladları yardım edir atalarına. O maddi vəsaitin bir hissəsi də elə bu zala xərclənir. Bir də məşqə gələn uşaqların ehtiyaclarına.

- Mən o uşaqlardan onca manat belə ala bilərəm, mənim balam. Çoxu kasıb uşaqdır. İraq olsun, o fikrə düşsəm, o uşaq çıxıb gedər və bəlkə gələcəyin olimpiya çempiononu itirə bilər bu ölkə.

***

Ağsuda, Bakıdan çox yox, 150 kilometr aralıda 80 yaşlı bir müəllim var. Onun idman zalı, güləşi var. Və orda, həmin idman zalında hər gün onlarla uşaq məşq edir, güləşçi yetişdirilir. Onlarla uşağın təmənnasız xidmətindədir, 80 yaşlı Mübariz müəllim. Hər bir uşağın nazını çəkir, diqqət göstərir.

Bəlkə bir dəfə də biz diqqətli olaq, diqqət göstərək ona?



# Binəqədidə marketdə yanğının yaşayış evlərinə keçməsinin qarşısını mühafizə polisləri aldı

**Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin canlı qüvvə və texniki vasitələri ilə qorunan obyektlərin, eləcə də xüsusi mülkiyyətlərin təhlükəsizliyi 24 saat etibarlı şəkildə qorunur.**

Bunu sübut edən hadisələrdən növbəti biri Binəqədi rayonunda qeydə alınıb. Belə ki, gecə saatlarında rayon ərazisində xüsusi texniki avadanlıqlarla qorunan marketlərdən birindən Mərkəzi Mühafizə Məntəqəsinə Həyəcan siqnalı daxil olub. Dərhal Binəqədi Mühafizə İdarəsinin əməkdaşları hadisə yerinə yollanıb və marketin daxilində yanğın baş verdiyi müşahidə edilib. Alovun qısa zamanda böyüməsinin və ətraf ərazilərdə olan yaşayış evlərinə keçməsinin qarşısını almaq üçün dərhal polis əməkdaşları vaxt itirmədən həyatlarını təhlükə altına qoyaraq obyektin qapısını sındırıb içəri daxil olublar. Qısa zamanda yanğının qarşısı polislərin səyi nəticəsində alınıb və alovun geniş miqyasda yayılmasına imkan verilməyib.

Obyektdə baş verən yanğının səbəbləri araşdırılır. Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsi bir daha əhalini əmin edir ki, Mühafizə Polisinə etibar edərək onlara müqavilə bağlayan istənilən şəxsin xüsusi mülkiyyəti və obyekti günün hər bir saatı etibarlı şəkildə qorunur.



# Gömrükçülər "Fikrət Əmirov" gəmisində nələr gördülər?

**Gömrükçülər külli miqdarda tekstil məmulatlarının gömrük orqanına düzgün bəyan olunmadan ölkə ərazisinə gətirilməsinin qarşısını alıb.**

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin xəbərinə görə, Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinin "Beynəlxalq dəniz ticarət limanı" gömrük postuna Türkmənistan Respublikasından tekstil məmulatlarının yükləndiyi "Fikrət Əmirov" adlı gəmi daxil olub. Türkmənistan istehsalı olan 1853 kq çəkidə 15.000 kv.metr və 3000 kq çəkidə 20.000 kv.metr həcmdə tekstil məmulatları "Arçın KM" MMC-nin ünvanına göndərilib.

"Arçın KM" MMC həmin malları müvafiq gömrük bəyannamələri üzrə sərbəst dövriyyə üçün buraxılış proseduru altında rəsmiləşdirib. Gömrük bəyannamələri Baş İdarədə qəbul edildikdən sonra idxal olunan mallar gömrük postunun ərazisinə boşaldılıb. Gömrük baxışı zamanı idxal olunan malların gömrük bəyannamələri və mal-müşayiət sənədlərində göstərilən miqdarından artıq - 400 ədəd müxtəlif tekstil məmulatları, 700 metr parça və 17.000 kv.metr bez parçası malları aşkar edilib.

Faktla bağlı araşdırma aparılır.



# Zaqatalada narkotik tərkibli bitkilər becərən qohumlar saxlanıb

**Zaqatala Rayon Polis Şöbəsi əməkdaşları tərəfindən rayon ərazisində narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olan şəxslərin tapılaraq məsuliyyətə cəlb olunmaları istiqamətində növbəti uğurlu əməliyyat tədbiri keçirilib.**

DİN Mətbuat Xidmətinin Şəki regional qrupundan verilən məlumata görə, daxil olmuş məlumat əsasında keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik tərkibli bitkilərin əkini ilə məşğul olmaqda şübhəli bilinən rayonun Aşağı Tala kənd sakini olan qohumlar - 36 yaşlı Süleyman və 27 yaşlı Kənan Qurbanovlar, qonşuları - 28 yaşlı Səxavət Hümbətov saxlanıb. Aparılmış araşdırma zamanı məlum olub ki, onlar qabaqcadan əlbir olub bir qrup şəxs halında birləşərək S.Qurbanova məxsus torpaq sahəsində narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olublar. Polis əməkdaşları tərəfindən həmin əraziyə baxış keçirilən zaman oradan xüsusi aqrotexniki qaydada qulluq edilməklə yetişdirilən 52 ədəd çətənə kolu aşkar edilərək götürülüb.

Faktla bağlı RPŞ-də araşdırma aparılır.



# Novxanıda keçmiş məhbusun istixanasından 252 ədəd çətənə kolu aşkar edildi

**Daxili işlər orqanları tərəfindən kultivasiya yolu ilə yetişdirilən narkotik tərkibli bitkilərin aşkar edilməsi istiqamətində tədbirlər uğurla davam etdirilir.**

Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşlarının daxil olan məlumat əsasında həyata keçirdikləri növbəti əməliyyat tədbiri nəticəsində Novxanı qəsəbə sakini əvvəllər məhkum olunmuş Taleh Ağayev saxlanıb. Onun qəsəbə ərazisindəki həyətyanı sahəsində yerləşən istixanaya baxış keçirilən zaman kultivasiya yolu ilə yetişdirilən 252 ədəd çətənə kolu aşkar edilərək götürülüb.

T.Ağayev ifadəsində narkotik tərkibli bitkiləri bir müddət əvvəl əkdiyini və xüsusi qulluq edərək yetişdiridiyini etiraf edib. Onun məqsədi isə çətənə kollarını qurudandan sonra satmaq olub.

Faktla bağlı saxlanan şəxs barəsində cinayət işi başlanıb, istintaq tədbirləri davam aparılır.

№ 135 (4033) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

2 AVQUST 2019-cu il

www.baki-xeber.com

# "Ördək dimdikli" dinozavr növü tapıldı



**Texas Texniki Universitetinin professoru Tom Lehmanın 1980-ci illərə söykənən araşdırması, yeni bir dinozavr növünün tapılmasını təmin etdi.**

Bu yeni növ ördək formasında bir dimdiyə sahibdir və otyeyən bir dinozavr olduğu bilinir. Elm adamları, yeni növ ilə birlikdə növün əvvəlini və sonrasını araşdıra biləcəklərini ifadə etdi. "Deyerler.org" bildirir ki, Texasda olan Biq Band Milli Parkında, ördək dimdiyinə sahib, əskiksiz bir dinozavr skeleti tapıldı. "Aquilarhinus palimentus" adlı yeni növ, Sistematik Paleontologiya Jurnalında tanıdıldı. Texas Texniki Universitetinin professoru Tom Lehman, 1980-ci illərdə (maqistraturada) Rattle Snake dağında daşların layları üzərində araşdırmalar aparırdı və hava tərəfindən aşındırılmış sümüklərə rast gəldi. Lehman və yoldaşları, sümükləri araşdırmaq üçün götürsə də, bəzi sümüklər bir-birinə yapışdığı üçün sümükləri araşdırmaq az qala qeyri-mümkün idi. 1990-cı illərdə aparılan araşdırma ilə, maraqlı bir çənə quruluşu da ortaya çıxarıldı. O zamanlar "Gryposaurus" növünə aid olduğu düşünülən bu sümüklər, uzun bir müddət boyunca araşdırıldı və üzərində işlər görüldü. Son ortaya çıxan məlumatlar isə, sümüklərin "Gryposaurus"dan daha primitiv olduğunu və "ördək dimdiyi"nə sahib olan dinozavrlara aid olduqlarını ifadə etdi.

## Elan

Şəki rayonu, Böyük Dəhnə kənd sakini Bayramov Tehran Bayram oğlunun adına verilmiş torpaq sahəsinin planı və ölçüsü sənədi itdiyi üçün etibarsız sayılır.

Turan qəsəbə sakini (Orcenikidze adına sovxoz ) Mütədiyyin İbrahim Məmmədəli oğlunun adına verilmiş 15 saylı qeyri-yaşayış sahəsinin qeydiyyat vəsiqəsi itdiyindən etibarsız hesab edilir.

Əzizova Mehriban Ağa-Rəhim qızının adına məxsus, Bakı şəhəri, Səbail rayonu, Qurban Abbasov küçəsi, ev 50/52, mənzil 40 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Mixaylova Anjelika Mixaylovnaya məxsus, Bakı şəhəri, Yasmal rayonu, H.Cavid prospekti, ev 5, mənzil 58 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Naxmed (Əhməd) İsmayıloğlunun adına məxsus, Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi, ev 5 ünvanına verilmiş çıxarışı itdiyi üçün etibarsız sayılır.

Yaqubov Mikayıl Xanlar oğlunun adına, Abşeron rayonu, Saray qəsəbəsində yerləşən 0.050 sot torpağın (seriya RX №0143728, reyestr nömrəsi 308013046783) çıxarışı itdiyi üçün etibarsız sayılır.

"Montin Bazar ASC"nin 12 sentyabr 2018-ci il tarixində ümumi yığıncağı keçiriləcək (Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Mayakovski küçəsi 8/9).

Orucov Füzuli Gülməmməd oğluna Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən verilmiş AR 039962 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Əhmədov Firudin Canəli oğlunun adına, Lənkəran şəhəri, Ş.Nizami küçəsində yerləşən 3 sot torpağın (reyestr № 2217005703) çıxarışı itdiyi üçün etibarsız sayılır.

Əhmədov Gülsəsər Xabək qızının adına, Bakı şəhəri, Nizami rayonu, Cəmşid Naxçıvanski küçəsi, ev 21, mənzil 15 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Məmmədov Sahil Abuseyin oğlunun adına, Salyan rayonu, Yenikənd kəndi, Həsənli qəsəbəsində yerləşən 0.12 sot torpağın həyətyanı mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## 88 ölkədən Bakıya gələn olimpiadaçı istedadların Rəqəmsal Sponsoru "Azercell"

*Lider mobil operator Azərbaycanın evsahibliyi etdiyi 31-ci Beynəlxalq İnformatika Olimpiadasına dəstək olur*

**İnformasiya-kommunikasiya texnologiyalarının insan həyatının bütün sahələrinə sürətlə nüfuz etdiyi dövrdə cəmiyyətin rəqəmsal savadının artırılmasını öz fəaliyyətinin ən prioritet istiqamətlərinin birinə çevirən "Azercell Telekom" növbəti təşəbbüslərlə çıxış etməyə davam edir.**

Bu il paytaxt Bakıda keçiriləcək dünyada kompyuter elmi sahəsində gənclər arasında ən nüfuzlu yarışlardan hesab olunan 31-ci Beynəlxalq İnformatika Olimpiadasında "Azercell" şirkəti İstedadların Rəqəmsal Sponsoru qismində təmsil olunacaq. Xatırladaq ki, 2017-ci ildən etibarən "Azercell" şirkəti Təhsil Nazirliyi ilə birgə Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi vasitəsilə azərbaycanlı olimpiadaçılar üçün xüsusi hazırlıq məşğələlərinin təşkilində iştirak edir. İstedadların Rəqəmsal Sponsoru olmaqla yanaşı, "Azercell" şirkəti həm də yarışmaçılar və onları müşayiət edən heyəti Azərbaycanda olduqları müddət ərzində mobil internet və xüsusi hədiyyələrlə də təmin edəcək. Beynəlxalq İnformatika Olimpiadası Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşəbbüsü, ADA Universiteti, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və digər dövlət qurumlarının dəstəyilə keçirilir. Əlavə olaraq, Olimpiadanın rəsmi Qlobal Sponsoru qismində "Acer" şirkəti və İstedad Sponsoru qismində "PAŞA Bank" çıxış edir.

1989-cu ildən etibarən keçirilən Beynəlxalq İnformatika Olimpiadası hər il dünyanın bir çox ölkəsindən məktəblilərə bilik və bacarıqlarını nümayiş etdirməyə imkan yaradır. Bundan əvvəl Olimpiada dünyanın 30-a yaxın ölkəsində baş tutmaqla, Zaqreb, Tehran, Afina, Qahirə, Almatı, Kazan və s. şəhərlərdə keçirilib. Bu il ölkəmizdə baş tutacaq Beynəlxalq İnformatika Olimpiadasında iştirak üçün Azərbaycan komandası da daxil olmaqla, 88 ölkədən 600-dən çox şagird, müəllim və ekspertdən ibarət rəsmi nümayəndə heyəti qeydiyyatdan keçib. Bu nüfuzlu beynəlxalq yarışda ölkəmizi indiyə qədər 24 dəfə təmsil edən Azərbaycan komandaları müxtəlif illərdə 1 gümüş və 4 bürünc olmaqla, ümumilikdə, 5 medal qazanıb.

Xatırladaq ki, "Azercell Telekom" yarandığı vaxtdan ölkədə gənc nəslin inkişafına, məktəbli və tələbələrin müxtəlif sahələrdə bilik və bacarıqlarının artırılmasına, eləcə də ölkədə informasiya-kommunikasiya, kompyuter mühəndisliyi istiqamətində kadrların yetişməsinə xüsusi proqramlar, yerli və beynəlxalq müsabiqələr səviyyəsində öz dəstəyini göstərməkdə davam edir. Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Günün ilk yarısında iradəsiz davranmayın. Bu və digər qərarı qəbul edəndə çox düşünməyin. Şanslarınızı əldən verməyin. Vaxt itkisinin fəsadları kritik ola bilər. Həddən ziyadə fəallıq və ifrat təkidlər üçün əlverişli zaman deyil.



**Buğa** - Məqsədinizə çatmaq üçün bu gün hər şeyə hazırsınız. Lakin unutmayın ki, avantüralar və məcaraların hamısı yaxşı bitmir. Məcara maraqlı olsa da, risk və təhlükələr az deyil. Aramla davranın, yüz ölçüb bir biçin.



**Əkizlər** - Günün ilk yarısında yaxşı tanımadığınız insanlarla birgə fəaliyyət barədə ideyaları ertələyin. Sınanmış insanla adət etdiyiniz şəraitdə çalışın. Fəaliyyətinizlə bağlı müntəzəm fiziki yükə məruz qalırsınızsa, bir qədər dincəlin.



**Xərçəng** - Əvvəlcədən hazırlanmış planlara günün ilk yarısında nəzərdə tutulmamış əlavələr və yenilənmələr ola bilər. İşlərinizi təkbaşına görməyə çalışın. Müsbət emosiyalar irəliyə doğru hərəkətinizi daha da sürətləndirə bilər.



**Şir** - Yaradıcılıq, planların reallaşdırılması və müzakirələr üçün münasib zamandır. Ağır və rutin işdən qaçmayın. Gəlir əldə etmək üçün ən kiçik şansları dəyərləndirin. Günün ikinci yarısında xarici görkəminizə fikir verin.



**Qız** - Yaxın ətrafınızdakı insanların xoşuna gəlməyə çalışmayın. Müstəqil olun, diqqətli davranın. Heç nədə ifrata varmayın. Davranış və zahiri görünüşünüzdə kardinal dəyişikliklər zamanı deyil.



**Tərəzi** - Günün ilkin yarısında planlarınızı təftiş edin, qarşınıza qoyduğunuz məqsədləri dəqiqləşdirin. Yaxın ətrafınızdakı insanların suallarının hamısını cavablamaq məcburiyyətində deyilsiniz.



**Əqrəb** - Dəvət olunmuş yerə yollanmaq üçün yaxşı gündür. Səhər saatlarından etibarən yorulmadan, usanmadan, bezmədən çalışın. Nə qədər çox çalışsanız, maddi durumunuz bir o qədər yaxşı olar.



**Oxatan** - Günün ilk yarısında sual doğuran məsələlər çox olacaq. Fəaliyyətinizdə önəmli məqamı nəzərdən qaçırmayın. Situasiyanı izləyin. Son xəbərlər və məlumatlardan xəbəriniz olsun. Çalışdığınız yerdəki dəyişiklikləri diqqətlə izləyin.



**Oğlaq** - Günün ilk yarısının emosional fonu gərgindir. Sizə yaxın insanlardan biri həll edə bilmədiyi problem, çözməkdə çətinlik çəkdiyi məsələ ilə üzləşib. Qayğıkeş olun, yardım edin. Peşəkar bilik və bacarıqlarınızı artırın.



**Dolça** - Şəxsi məsələlərdə və fəaliyyət müstəvisində düşünülməmiş təşəbbüslər, mənasız aktivlik yalnız ziyan vura bilrə. Çalışdığınız kollektivdə münasibətlər nə qədər harmonik olarsa, bir o qədər yaxşıdır.



**Balıqlar** - Bu gün ərzində çox işin öhdəsindən gələ bilərsiniz. Yeni köməkçilər və işə yardımçı ola biləcək adamları arayın. İndiyədək birlikdə çalışdığınız insanlar bugünkü gərgin iş qrafikindən şikayətlənə bilərlər.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dişlərə ziyan vuran çaylar

**Bern Universitetini təmsil edən İsveçrə alimləri, dişlərin mina qatına ziyan vuran çaylar haqda danışıb. Siyahıda ən əvvəl orqanizm üçün müəyyən cəhətdən faydalı sayılan karkade (Hibiskus yaxud Məkkə çayı - red.) çayı qeyd edilmişdir.**

"Deyerler.org" bildirir ki, ekspertlərin fikrinə görə, məhz limon turşusu, dişlərin emalının hətta tam olaraq aradan getməsinə qədər ziyan vura bilər.

Oxşar tərzdə az kaloriyalı, limon və askorbin turşusu əlavə edilmiş qazlı sular da dişlərə mənfi təsir göstərir.

Bəzi enerji içkiləri də həmçinin dişlərin mina qatına ziyanlı ola bilər.

Belə ziyanlardan qorunmaq üçün alimər içkilərə kalsium əlavə etməyi tövsiyə edir.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.